№ 270 ISSN 1027-3875 31 may 2009

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

DÜNYADA YENİ İNKİŞAF MEYLLƏRİ VƏ TÜRK DÜNYASI

Beynəlxalq Simpozium

Xəzər Universitəsi - Bakı

29-31 May 2009

Khazar University - Baku

The İnternational Symposium

MODERN DEVELOPMENTAL TRENDS AND TURKISH WORLD

XƏZƏR UNİVERSİTƏSİNƏ XOŞ GƏLMİSİNİZ!

ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Əminə M.RZAQIZI
Fotomüxbir:
Könül ƏLİYEVA

Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been published twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Amina M. RZAQIZI
Photoreporter:
Konul ALIYEVA

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN

Bu nömrədə



"DÜNYA" MƏKTƏBİNDƏ MƏTBUAT KONFRANSI 7



YUNESKO-da AZƏRBAYCAN AŞIQLARININ ÇIXIŞI 12



İsaxan İSAXANLI 16
ŞEİR GÜLÜSTANININ TƏKRAROLUNMAZ ÇİÇƏYİ – SERGEY YESENİN



НЕКОТОРЫЕ ОСОБЕННОСТИ ЖЕНСКОЙ КРАСОТЫ 32



FUTBOL komandamız var! 35



USAQ DÜNYASI 36



İLHAM TUMAS 29
ƏXLAQSIZ VƏ QÜDRƏTLİ RASPUTİN HAQQINDA HƏR ŞEY...

UNİVERSİTƏ XƏBƏRLƏRİ

Beynəlxalq simpozium: DÜNYADA YENİ İNKİŞAF MEYLLƏRİ VƏ TÜRK DÜNYASI

Mayın 29-da Xəzər Universitəsində "Dünyada yeni inkişaf meylləri və türk dünyası" mövzusunda beynəlxalq simpozium işə başlayır

Simpoziumun məqsədi dəyişən dünya şəraitində ortaq tarix, dil və mədəniyyət birliyinə malik olan və bugünkü Türk Dünyasını meydana gətirən cəmiyyətlərin müxtəlif universitet, akademiya və institutlarındakı elm adamlarını bir yerə toplamaqla yaşadıqları cəmiyyətlərin və ümumiyyətlə Türk Dünyasının vəziyyətini, qarşılaşdıqları problemləri araşdırmaq və müzakirə etməkdir.

Məlum olduğu kimi, Sovetlər Birliyinin dağılmasından sonra bir çox türk dövləti müstəqilliyini elan etmişdir. Yeni dövlətin qurulması prosesi ilə birlikdə yeni problemlər də ortaya çıxmışdır. Türk respublikalarının siyasi birliyinə nail olmaq problemi ilə yanaşı ictimai həyatın dünyadakı inkişaf istiqamətində təşkilini təmin etmək də mühüm problemə çevrilmişdir. İqtisadiyyatın dünya standartlarına görə təşkil edilməsi, müasir təhsil sistemlərinin yaradılması, mədəni həyatın yenidən təşkili və inkişaf etdirilməsi, qonşu və dünyanın digər ölkələri ilə ünsiyyətin daha təsirli bir şəkildə təmin edilməsi məsələləri prioritet vəzifələr kimi qarşıda durur. Bunlarla yanaşı, sürətlə qloballaşan dünyanın yeni dəyərləri ilə uyğunlaşmaq və inteqrasiya səyləri əhəmiyyət qazanmağa başlamışdır. Sərbəst bazar iqtisadiyyatı şəraitində demokratikləşmə və insan hüquqlarının təmin edilməsi türk respublikalarının mühüm problemlərindəndir. Qloballaşma prosesində dünya ilə inteqrasiya hər baxımdan əhəmiyyətli hala gəlmişdir. Bütün bu məsələlər üç gün ərzində simpoziumun beş bölmədə (Yeni dünya nizamı, iqtisadi böhran və inteqrasiyalar; Beynəlxalq əlaqələr və əməkdaşlıqlar; Dünya təhsil sistemi və türk dünyası; Tarix, fəlsəfə,din və sosiologiya; Dil, ədəbiyyat, mədəniyyət) keçiriləcək iclaslarında müzakirə olunacaqdır. Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Kanadanı təmsil edən 120-dən çox alim və tədqiqatçının məruzəsi dinlənilləcəkdir.

Simpoziumun hazırlanması və keçirilməsini təmin etmək üçün Xəzər Universitəsinin rektoru, professor **Hamlet İsaxanlının** başçılığı ilə Ph.D **S.Oğan** *(TürkSAM direktoru)* və Ph.D **E.Çelikdən** *(TİKA Azərbaycan nümayəndəsi)* ibarət Təşkilat komitəsi yaradılmış və fəaliyyət göstərir.

Simpoziumun iştirakçı ölkələrin görkəmli alimlərindən ibarət Rəyasət heyəti də yaradılmışdır: Prof.Dr.-lar **H.İsaxanlı** (*Xəzər Universitəsinin rektoru, Azərbaycan*), **S.Adalı** (*Ana-*

yasa Məhkəməsinin üzvü,Türkiyə), **R.Ayhan** *(Qazi Üniversitəsinin rektoru,* Türkiyə), **M.L.Baydar** *(Süleyman Dəmirəl Üniversitəsinin rektoru, Türkiyə),* **C.Cəfərov** *(Turizim Universitetinin rektoru, Azərbaycan),* **A.Akdemir** *(Çanaqqala Onsəkkiz Mart Üniversitəsinin rektoru, Türkiyə),* **N.Cəfərov** *(Atatürk Mədəniyyət Mərkəzinin direktoru, Bakı Dövlət Universiteti, Azərbaycan),* **A.B.Ercilasun** *(Qazi Üniversitəsi, Türkiyə),* **Kamil V.Nərimanoğlu** *(Yedditəpə Universitəsi, Türkiyə),* **S.Əlyarlı** *(Bakı Dövlət Universiteti, Azərbaycan),* **Anar** *(Yazıçılar Birliyinin sədri, Azərbaycan),* **İ.Əhmədov** *(Xəzər Universitəsi, Azərbaycan),* **S.Rüstəmova-Tohidi** *(Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu, Azərbaycan),* **M.Özkul** *(Süleyman Dəmirəl Üniversitəsi, Türkiyə),* **K.Çelik** *(Qaradəniz Texniki Üniversitəsi, Türkiyə),* **A.Karaaslan** *(Dumlupınar Üniversitəsi,Türkiyə),* **Bilal M.Özgüven** *(Adıyaman Üniversitəsi,Türkiyə),* **H.Selcuk** *(Mərmərə Üniversitəsi,Türkiyə),* **S.Bayraktaroğlu** *(Sakarya Üniversitəsi, Türkiyə),* **D.Alimova** *(Özbəkistan Milli Elmlər Akademiyası Tarix İnstitutunun direktoru),* professorlar **Ali Polat** *(Türkiyə),* **M.Nuriyev** *(Xəzər Universitəsi, Azərbaycan),* Doç.Dr. **M.Kemal** *(Demirci Dumlupınar Üniversitəsi,Türkiyə),* T.e.d. **G.Mendikulova** *(Qazaxıstan Elmlər Akademiyası Şərqşünaslıq Institutu),* T.e.n. dos. **A.Toktosunova** *(Qırğızıstan XİN Diplomatiya Üniversiteti),* Ph.D.-lər **E.Zengin** *(TİKA, Türkiyə),* **S.Oğan** *(TürkSAM, Türkiyə),* **M.İsgəndərov** *(Xəzər Universitəsi, Azərbaycan),* **E.Səmədova** *(Xəzər Universitəsi, Azərbaycan).*

Simpoziumun Xəzər Universitəsinin əməkdaşlarından ibarət Koordinasiya şurası da fəaliyyət göstərir: Ph.D.-lar **Murad İsgəndərov, İntiqam Bəşirov, Elza Səmədova, Rövşən Qarayev, Eldar Şahgəldiyev,** dos. **Rakif Fərəcov, Əlövsət Əmirbəyli.**

Simpozium üç gün davam edərək, mayın 31-də işini başa çatdıracaqdır.

Simpozium iştirakçılarına uğurlu iş arzulayırıq!

ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ İLƏ BAĞLI MÜZAKİRƏLƏR

Mayın 7-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı Qafqaz Tədqiqat Resurs Mərkəzinin ölkə üzrə direktoru Gürsel Əliyevi qəbul etdi. Görüşdə əməkdaşlıq məsələləri müzakirə olundu.

TƏLƏBƏ MƏCLİSİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

Mayın 13-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı universitənin yeni seçilmiş Tələbə Məclisinin prezidenti, vitse - prezidenti, senatorları (5 nəfər) və digər üzvləri ilə görüş keçirdi. Rektor tələbələri maraqlandıran bütün sualları cavablandırdı.

Görüşdə rektor köməkçisi Gülhəyat Abdullayeva, İctimaiyyət və iş dünyası ilə əlaqələr departamentinin koordinatoru Əlövsət Əmirbəyli və İnzibati şöbənin müdiri Murad İsgəndərov iştirak etdilər.

ÇİN SƏFİRİ XƏZƏR UNİVERSİTƏSİNDƏ






Mayın 14-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı Çin Xalq Respublikasının Azərbaycandakı səfiri Cənab Çjan Yann-Yanı qəbul etdi.

Görüşdə Azərbaycan-Çin təhsil əlaqələri məsələsi və professor Hamlet İsaxanlının aprel ayında Çinə səfərinin nəticələri müzakirə olundu.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın əməkdaşları Xəzər Universitəsində




Mayın 19-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın əməkdaşları Xəzər Universitəsində universitənin sonuncu kurs tələbələri ilə görüş keçirmişlər. Xəzər Universitəsi ilə birlikdə təşkil olunan görüşdə Komissiyanın Dövlət qulluğuna kadrların seçilməsi şöbəsi müdirinin müavini Rauf Məcidbəyli və Hüquq sektorunun müdiri Vüqar Əsgərov iştirak etmişlər.

Tədbiri giriş sözü ilə açan universitənin Hüquq fakültəsinin dekanı Cabir Xəlilov Komissiyanın fəaliyyətinin əhəmiyyətini vurğulayaraq, vətəndaşların dövlət qulluğuna qəbulunun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsini yüksək qiymətləndirmiş və bunun demokratik dövlət quruculuğu prosesində və gənclərin, o cümlədən də tələbələrin dövlət qulluğuna marağının artmasında əhəmiyyətli rol oynadığını bildirmişdir.

Komissiyanın Dövlət qulluğuna kadrların seçilməsi şöbəsi müdirinin müavini Rauf Məcidbəyli Azərbaycanda dövlət qulluğu sahəsində həyata keçirilən islahatlardan danışaraq, Komissiyanın fəaliyyətinin əsas istiqamətləri, o cümlədən dövlət qulluğuna qəbulun müsabiqə və şəffaflıq prinsipləri əsasında aparılması, dövlət qulluqçularının əlavə peşə təhsilinə cəlb edilməsi, etik davranış qaydaları, dövlət orqanlarında dövlət qulluğu sahəsində qanunvericiliyin tətbiqinə nəzarətin həyata keçirilməsi və Komissiyanın gələcək planları barədə görüş iştirakçılarına ətraflı məlumat vermişdir.

Sonra R.Məcidbəyli və V.Əsgərov tələbələri maraqlandıran sualları cavablandırmışlar.

MƏDƏNİYYƏT MƏRKƏZİNİN SƏDRİ İLƏ GÖRÜŞ





Mayın 21-də İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin Mədəniyyət Mərkəzinin sədri İbrahim Nuri Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı ilə görüşmüşdür. Xəzər Universitəsində təhsil alan tələbələrin İrana qısamüddətli səfərlərinin təşkili, İranda fəaliyyət göstərən tərcümə mərkəzi ilə universitənin tərcümə mərkəzi arasında əməkdaşlıq məsələləri müzakirə olunmuşdur. İbrahim Nuri fars dili dərslərinin birində iştirak etmiş, dərsdə fərqlənən tələbələri mükafatlandırmışdır.

"DÜNYA" MƏKTƏBİNDƏ MƏTBUAT KONFRANSI

Mayın 22-də Xəzər Universitəsi nəzdində fəaliyyət göstərən orta ümumtəhsil "Dünya" məktəbinin "Beynəlxalq Ib məktəbi" statusu alması münasibətilə "Dünya" məktəbində mətbuat konfransı keçirilmişdir. Azərbaycanın bir sıra media (İctimai TV, LİDER, SPACE telekanalları, Turan, APA, Olaylar agentlikləri, "Respublika", "Yeni Azərbaycan", "Bizim yol" qəzetləri və s.) nümayəndələrinin iştirak etdiyi mətbuat konfransını Xəzər Universitəsi İctimaiyyət və iş dünyası ilə əlaqələr departamentinin koordinatoru Əlövsət Əmirbəyli açmışdır. Universitənin rektoru, professor Hamlet İsaxanlı, "Dünya" məktəbinin direktoru Nailəxanım İsayeva və məktəbin ingilis dili müəllimi, **Dunya IB School** proqramının koordinatoru Rəna Musayeva çıxış edərək, "Dünya" məktəbinin fəaliyyəti və aldığı beynəlxalq statusun əhəmiyyətindən danışmışlar.

Media mənsublarına məlumat verildi ki, təhsilə məzmun və forma baxımından böyük yeni-



liklər gətirmiş İB təşkilatı 1968-ci ildə yaradılmışdır. İBO ibtidai və orta məktəb sahəsində nümunəvi dünya şəbəkəsi quran yeganə təşkilatdır, ikinci beynəlxalq şəbəkə sadəcə yoxdur. İBO-nun sanballı təhsil proqramını uğurla başa vuran şagird İBO diplomunu əldə edir.

İBO özünün çox yüksək standartları və pedaqoji dəyərləri ilə bütün dünyada məşhurdur. Bu



təşkilatın üzvü olmaq, bu məşhur məktəblər şəbəkəsinə qoşulmaq asan iş deyil. Xəzər Universitəsi nəzdində "Dünya" məktəbi öz yüksək standartlarını beynəlxalq aləmdə də təsdiq etdirərək, İBO - nun akkreditasiyasını keçmiş və **Dünya İB məktəbi (Dünya İB School)** adını almışdır.

Dünya məktəbi 2009 - cu ilin sentyabrından İBO proqramını tətbiq etməyə başlayacaq. Bu məktəbi bitirənlər beynəlxalq İB diplomu və eyni zamanda Azərbaycan orta təhsil attestatı alacaqlar. Onlar dünyanın hansı ölkəsində istəsələr eyni İB məktəblərində təhsillərini davam etdirə bilərlər. Ən vacib olanı isə İB diplomunun dünyanın hər yerində tanınmasıdır; dünyada minlərlə ali məktəblər İB diplomu almış gəncləri birbaşa qəbul edir, bəziləri isə sadəcə müsahibə etməklə kifayətlənirlər.

İBO proqramında təbiət elmləri və humanitar-sosial elmlərdən əlavə daha 3 fənn – Bilik nəzəriyyəsi (Theory of Knowledge (TOK), Cəmiyyət və yaradıcı iş (CAS) və Sərbəst yazı (Extended essay) tədris olunacaq ki, bunlar da şagirdin dünyagörüşünü və yaradıcı düşüncəsini artırır, cəmiyyətin həyatında fəal iştirakını təmin edir. İB məktəb sistemi gəncləri axtarışa sövq edir, onların təfəkküründə inkişaf etdirir. İB proqramı sayəsində şagirdlər həm öz xalqının mədəniyyətini dərindən mənimsəyir, həm də digər mədəniyyətlərlə yaxından tanış olurlar. Daha gözəl dünya yaratmaq – bu, İB məktəb sisteminin qayəsidir; öz ölkəsinin və gözəl dünyanın vətəndaşı olmaq - budur məqsəd.

"Dünya" məktəbi 2009 - cu ilin sentyabr ayında 10-cu sinifdə, bir il sonra isə 10-cu və 11-ci siniflərdə İBO proqramını tətbiq etməyə başlayacaq. Bu siniflərdə dərslər ingilis dilində keçiriləcək (Azərbaycan dili və ədəbiyyatı istisna olmaqla). İmtahan verməklə digər orta məktəb şagirdləri də "Dünya" məktəbinin İB siniflərinə qəbul oluna bilərlər. Daha aşağı (9, 8, ...) siniflərə qəbul olunaraq, "Dünya" məktəbində hazırlıq keçmək və İB siniflərinə daxil olmaq imkanı da mövcuddur.

10-cu sinifdə şagirdlər imtahan verməyəcək, yalnız müxtəlif layihələr üzərində işləyəcəklər və bu, müəllimləri tərəfindən qiymətləndiriləcək. 11-ci sinfin sonunda isə İsveçrədən gələn suallar əsasında imtahan keçiriləcək.


İBO-nun şərtlərinə görə dərs deyəcək müəllimlərin hamısı xarici ölkələrdə treninqlərdə iştirak edəcəklər.

Dünyada cəmi 1878 məktəb İB diplomu verə bilir, onlardan biri də Xəzər Universitəsinin Dünya məktəbi olacaqdır - İB Dunya School. Keçmiş Sovet ölkələrində İB diplomu verən cəmi 22 məktəb mövcuddur.

Sonda jurnalistlərin sualları cavablandırıldı.

Həmin gün "Dünya" məktəbində Xəzər Universitəsi Təhsil fakültəsinin məktəbdə təcrübə keçən dördüncü kurs tələbələrinin əl işlərindən ibarət sərginin açılışı oldu. Mətbuat konfransının iştirakçıları və qonaqlar sərgidəki eksponatlarla tanış oldular.

Jurnalist Məhəmməd Vəliyevin mətbuat konfransı haqqında "Respublika" qəzetində çap olunmuş ""Dünya" məktəbinə beynəlxalq status verildi" adlı məqaləsini (23 may 2009-cu il) oxucularımıza təqdim edirik.



"DÜNYA" MƏKTƏBİNƏ BEYNƏLXALQ STATUS VERİLDİ

Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən orta ümumtəhsil "Dünya" məktəbi 2009-cu il yanvarın 16-da Beynəlxalq Bakalavr Təşkilatı — İBO-nun üzvü seçilib. Belə bir məktəbin Azərbaycanda fəaliyyət göstərməsi dünyaya açılan yeni bir pəncərədir.

Həmin məktəbin qurucusu, Xəzər Universitəsinin rektoru, professor Hamlet Isaxanlı konfransda "Dünya" məktəbinin bu günü və gələcək perspektivləri ilə bağlı ətraflı məlumat verdi. O qeyd etdi ki, biz Xəzər Universitetinin tərkibində bu məktəbi ona görə yaratdıq ki, dünya səviyyəli təhsilə uşaqları körpəlikdən bağlayaq. Onlar təkcə vətədaşı olduğu ölkənin deyil, qloballaşan dünyanın, Yer kürəsinin vətəndaşı kimi yetişsinlər, təhsil və tərbiyə alsınlar, dünyanın aparıcı dillərini öyrənsinlər, dünyada gedən prosesləri dərk etsinlər, daim yeniliyə can atsınlar, müstəqil fikir sahibi olsunlar.

"Dünya" məktəbində gözəl iş şəraiti və mənəvi mühit hökm sürür. Zəngin və rahat kitabxana, müasir kompyuterlər, laboratoriyalar, işıqlı və geniş sinif otaqları, incəsənət studiyası, müasir işıq və səs sistemi olan yaraşıqlı konsert salonu, idman zalı, yeməkxana, həkim nəzarəti, şagirdlərin evdən məktəbə, məktəbdən evə hərəkətini təmin edən nəqliyyat xidməti, yüksək səviyyəli müəllim və inzibatçılar və sairə məktəbi bənzərsiz bir təhsil ocağına çevirmişdir. Bu il məktəbin ilk buraxılışı olacaq, iik məzunlar orta təhsil attestatı ilə yanaşı, İB diplomu da alacaqlar. Dünyada cəmi 1878 və MDB məkanında 22 İB diplomu verə bilən məktəblərdən biri də məhz Xəzər Universitetinin "Dünya" məktəbidir. İştirakçıları maraqlandıran suallara professor Hamlet İsaxanlı, məktəbin direktoru Nailə İsaxanlı və koordinator Nailə Musayeva ətraflı cavab verdilər.

Sonda konfrans iştirakçıları məktəblə hərtərəfli tanış oldular. Elmira xanım Mirzəyevanın rəhbərliyi ilə Xəzər Universitetinin IV kurs tələbələrinin əldə etdikiəri təcrübədən bəhrələnərək hazırladıqları əl işlərindən ibarət sərgiyə də baxış keçirildi.

Bu gün Xəzər Universitetinin "Dünya" məktəbinin beynəlxalq status alıb dünya məktəbinə çevrilməsi hamını sevindirir. Biz də bu təbrikə qoşulub "Dünya"' məktəbinə bu şərəfli yolda uğurlar arzulayırıq.

Məhəmməd VƏLİYEV,
"Respubüka"qəzeti

OLİMPİADANIN YEKUNLARINA HƏSR EDİLMİŞ MƏRASİM



Mayın 23-də Xəzər Universitəsinin "Dünya" konsert salonunda dəqiq elmlər (riyaziyyat, fizika, kimya) üzrə olimpiadanın yekunlarına həsr olunmuş mərasim keçirildi.

Mərasimi İctimaiyyət və iş dünyası ilə əlaqələr departamentinin koordinatoru, Olimpiadaya hazırlıq üzrə təşkilat komitəsinin sədri Əlövsət Əmirbəyli açaraq, olimpiadanın təşkili, keçirilməsi və yekunları haqqında geniş məlumat verdi.

Universitənin prorektoru, professor Rafiq Əhmədov olimpiadanın qaliblərini təbrik edib, olimpiadada iştirak etduklərinə görə universitə rəhbərliyi adından onlara təşəkkürünü bildirdi.

Türkiyənin Azərbaycandakı səfirliyinin təhsil məsələləri üzrə müşaviri Halis Koyunçuoğlu söz alaraq, Xəzət Universitəsinin rəhbərliyinə və əməkdaşlarına olimpiadanı yüksək səviyyədə təşkil etdiklərinə görə təşəkkürünü bildirdi.

Sonda qaliblərə sertifikatlar və hədiyyələr təqdim olundu.

İQTİSADİYYAT

Türk - Avrasiya İş Konseyi Başkanı Tuğrul Erkin:

TÜRK İŞ DÜNYASINA BÜYÜK KATKISI OLMAZ



Azerbaycan'a gidip gelen işadamlarımız, müteahitlerimiz, ticaret potansiyelimiz var. Sınır açılırsa bunlar sekteye uğrar. Bakü – Tiflis – Ceyhan petrol boru hattı, Tiflis – Kars doğalgaz, Erzurum – Tiflis – Bakü doğalgaz boru hattı ve Orta Asya demiryolu projeleri var. Bütün bunlar büyük projeler ve sekteye uğraması bizi rahatsız eder.

Kapıların açılması sınır illerimizde ticaret imkanı doğurur. Türk iş dünyasına etki edecek büyük bir katkısı olmaz. Toplam iş hacmi 150-200 milyon doları bulmayacaktır.

AZERBAYCAN'LA 6 MİLYAR DOLARLIK İŞ HACMİ VAR

Türkiye'den Azerbaycan'a geçen yıl 1.6 milyar dolarlık ihracat yapıldı.

Bu ihracat rakamında önde gelen sektörler meyve-sebze, otomotiv, çimento, ağaç orman, elektrik, demir-çelik ve tekstil oldu.

2008 yılında Azerbaycan'dan 928 milyon dolarlık ithalat yapıldı. 2009'un ilk iki ayında bu rakam 176 milyon dolar oldu.

Azerbaycan'da yaklaşık 600 Türk şirketi mobilya, gıda, elektronik, turizm ile inşaat sektörlerinde faaliyet gösteriyor.

Bu sektörlerin yıllık ticaret hacminin 3 milyar dolar olduğu belirtiliyor. Azerbaycan'daki işlere bakıldığında, petrol yatırımları bulunan yaklaşık 200 şirket eklendiğinde bu rakamın 6 milyar doları bulduğuna dikkat çekiliyor.

Türk - Azeri İş Konseyi Başkanı Cengiz Gül:

EKONOMİK ALANDA BİZİM İÇİN KAYIP OLUR

Şu anda Türk işadamlarının Azerbaycan'da 4.5 milyar dolarlık bir yatırımı var. 3 milyar doların üzerinde kar hacmimiz var. Azerbaycan'da yaklaşık altı yüz Türk firması var. Azerbaycan, Türkiye'de yatırıma başladı. Bu anlamda ekonomik kaybımız olabilir.

Enerji ve demiryolu hattı gibi büyük projelerimiz var. Şu anda Rusya bölgesine ticari ulaşım tırla yapılıyor. O TIR geçişleri İran ve Gürcistan'da sorunlar yaratıyor ve pahalıya mal oluyor. İhracatta maliyetleri yükseltiyor. Oysa Çin'e kadar uzanacak demiryolu orada başlıyor.

Servetleri 380 milyar dolar eridi

Rus milyarder sayısı 3'te 2 azaldı



Mikhail Prohorov



Roman Abramoviç



Vahit Alekperov



Mikhail Fridman

FORBES Dergisi'nin Rusça yayınında hazırlanan listeye göre, Rus milyarderlerin servetleri 380 milyar dolar eriyip, 142 milyar dolara indi. Derginin verilerine göre, krizden en çok etkilenen Rus milyarder, Oleg Deripaska oldu. Deripaska'nın serveti 28.5 milyar dolardan 3.5 milyar dolara düştü.

RUSYA'NIN EN ZENGİN 10 İŞADAMI

Adı	Yaşı	2009	2008	Şirketi
1. Mikhail Prohorov	43	9.5	22.6	Onexim
2. Roman Abramoviç	42	8.5	24.3	Yatırımlar
3. Vahit Alekperov	58	7.8	14.3	Lukoil
4. Mikhail Fridman	44	6.3	20.5	Alfa-Group
5. Vladimir Lisin	52	5.2	23.9	Novolipetsk Steel
6. Alexander Abramov	50	4.4	12.5	Evraz Group
7. Alexei Mordashov	43	4.3	24.5	Severstal
8. Leonid Fedun	53	4.3	7.0	Lukoil
9. German Khan	47	4.0	13.7	Alfa-Group
10. Oleg Deripaska	41	3.5	28.6	Basic Element



Vladimir Lisin



Alexander Abramov



Alexei Mordashov



Leonid Fedun



German Khan




Oleg Deripaska

Yazılar Türkiyə mətbuatından götürülmüşdür

MƏDƏNİYYƏT

RUSİYALI RƏSSAMIN "MÜSLÜM MAQOMAYEV. HƏMİŞƏ MƏNİMLƏ OLAN MUSİQİ..." ADLI SƏRGİSİ



Mayın 20-də Bakıda, Rusiya İnformasiya-Mədəniyyət Mərkəzində (RİMM) rusiyalı rəssam İrina Zaqovorçevanın "Müslüm Maqomayev. Həmişə mənimlə olan musiqi..." adlı sərgisi açılmışdır. Bu, rəssamın Bakıda artıq ikinci sərgisidir.

RİMM-in mətbuat mərkəzindən bildirmişlər ki, sərgidə Müslüm Maqomayevin doğma şəhəri Bakı ilə bağlı olan 20-dən çox tablo və təxminən 20 fotoşəkil nümayiş etdirilir.

RİMM-nin rəhbəri Ənvər Şeyxov təbrik nitqində İ.Zaqovorçevanın yaradıcılığından söhbət açaraq demişdir: "Bu, tanınmış rəssamın artıq 51-ci fərdi sərgisidir. Onun sərgiləri dünyanın bir çox ölkələrində, Yer kürəsinin müxtəlif guşələrində nümayiş etdirilmişdir. Rəssam 2008-ci ildə Bakıya "Sentimental səyahət" adlı sərgi ilə gəlmişdi. Ekspozisiya Azərbaycanın Rus İcması yanında Rus Mədəniyyəti Mərkəzi tərəfindən təşkil olunmuşdu. Bu gün isə İrina sizin mühakimənizə əfsanəvi müğənni Müslüm Maqomayevə həsr olunmuş sərgini təqdim edir".

İ.Zaqovorçeva demişdir:"Bu sərginin açılışı Moskva Şəhər Dumasında olmuşdur. Sonra dərhal Bakıya gətirdik. Lakin sərgini davam etdirmək üçün yenə də Moskvaya qayıdacağıq. Sərgi sevimli müğənni, nadir mənəvi keyfiyyətlərə malik M.Maqomayevə həsr olunmuşdur. Bu sərginin mütləq davamı olacaqdır. Planlarımız çoxdur. Əgər alınsa, gələn il yenə də Bakıya gələcəyik".

Açılış mərasimində Rusiyanın Bakıdakı səfirliyinin nümayəndələri, Azərbaycanın elm və mədəniyyət xadimləri iştirak etmişlər.

YUNESKO-da AZƏRBAYCAN AŞIQLARININ ÇIXIŞI




Mayın 21-də YUNESKO Luvr muzeyi, Paris bələdiyyə idarəsi və "La Villette" parkı ilə birlikdə beynəlxalq qurumun mənzil-qərargahında "Dialoq və inkişaf üçün mədəniyyət müxtəlifliyi" beynəlxalq günü çərçivəsində "Mədəniyyət müxtəlifliyi-2009" festivalı keçirmişdir.

"Müxtəliflik bayramı" adı altında keçirilmiş konsert-tamaşada 8 ölkənin incəsənət ustaları çıxış etmişlər. Proqrama əsasən hər ölkə bir konsert nömrəsi ilə təmsil olunmuşdur. Bu il YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi üçün təqdim edilmiş "Aşıq sənəti"nin təqdimatı məqsədi ilə ölkəmizin tanınmış aşıqlarından Samirə Əliyeva, Ramin Qarayev, Nemət Qasımov və Altay Məmmədov tamaşaçılar qarşısında öz məharətlərini nümayiş etdirmişlər. Balabanda onları Şirzad Fətəliyev müşayiət etmişdir.

Azərbaycan aşıqlarının çıxışı tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdır.

KANN KİNOFESTİVALININ QALİBİ



62-ci Kann kinofestivalının "Qızıl palma budağı" mükafatına avstriyalı kinorejissor Mixail Xanekenin çəkdiyi "Ağ lent" filmi layiq görülmüşdür. Xarici ölkə informasiya agentliklərinə istinadla bildirilmişdir ki, fransız rejissoru Jak Odiyarın "Peyğəmbər" filminə festivalın "Qran-pri" mükafatı verilmişdir.

Kventin Tarantinonun "Şərəfsiz alçaqlar" filmində baş rolun ifaçısı Kristof Valts ən yaxşı aktyor, "Şeytan" filmindəki roluna görə fransız Şarlotta Qenzbur ən yaxşı aktrisa nominasiyasında qalib gəlmişlər.

"Kinatay" filminin rejissoru Briyante Mendosa ən yaxşı rejissor, "Bahar qızdırması" filminin ssenari müəllifi, çinli Lou Ye ən yaxşı ssenarist elan olunmuşlar.

Münsiflər heyətinin mükafatını isə "Akvarium" və "Yanğı" filmləri bölüşmüşlər.

THE ECONOMIC CRISIS: WINNERS & LOSERS

WHAT IT MEANS

Drawing up a scorecard of winners and losers from the financial crisis and resulting global economic downturn is relatively easy if we concentrate on straightforward economic effects, and if we think of them in the short term.

Political ramifications, especially over the longer term, are more difficult to calculate. Some putative losers by both measures are readily identifiable, though. Oil exporting countries head the list: e.g. Russia, Iran, Iraq, the Gulf States, and Venezuela. All are suffering a sharp drop in revenues as oil prices have fallen precipitously from $160 a barrel last summer to around $55 today.

Russia, the world's second largest oil exporter, has relied on oil revenues to fuel a decade of growth and stability beginning with the recovery from the last crisis in 1998. The resulting rise in living standards was the foundation of Vladimir Putin's successful reconstitution of a strong Russian state. Popular at home and less dependent on the West for economic sustenance, he enjoyed the freedom to pursue a more assertive, self-interested foreign policy. Changing economic fortunes crimp his style, although it is unlikely that Moscow will revert from has been its historical vocation of activism in managing its external relations.

Iran, too, is even more highly dependent on oil revenues. Iranians have been cushioned from the full effects of the American led sanctions regime by the flow of petrodollars. Understandably, there is now much talk in Washington that a further tightening of the screws could force the leadership in Teheran to make major concessions on its contentious nuclear program. That is a dubious argument. The mullahs, and President Ahmedinejad, have proven themselves resilient players in a high stakes game They will not forgo what they see as core national interests unless concessions are part of a comprehensive deal that accords them a prominent place in a new regional security system. Their mechanisms of social control can contain any domestic pressures.

Iraq's fate is something to worry about. Whatever prospects exist for the evolution of a stable polity are jeopardized by the drying up of oil revenues. Mr. Maliki is using his treasury to win allies, to buy off possible enemies, and to keep already poverty stricken Iraqis from complete despair. He, or any successor whether democratically selected or an authoritarian figure, will find it impossible to consolidate his power unless he has oil money as the all purpose lubricant. Whatever exaggerated hopes the Obama administration has for a secure Iraq serving as a bulwark for American interests in the region now look even more fanciful. Iraq as an obvious loser from the economic crisis is also a strategic loss for the United States.

Saudi Arabia, Kuwait and the Gulf principalities are in far better shape. Small populations and prudent policies of building up large financial reserves are making it possible for them to ride out the storm. Economic pressure will not figure prominently in their strategic calculations. Hugo Chavez's Venezuela is too insignificant a diplomatic player for its drop is export earnings to make much of a difference internationally. What of the United States- and China, the looming great power?

Assessing the effects of the financial crisis and economic downturn on China's weight in world affairs relative to the United States should begin by laying out some of the essential facts. They can be listed simply. " China's rate of growth has slowed, yet is surpassing that of the US by an even greater margin today than before the crisis hit. All forecasts are that this gap will be maintained for the foreseeable future given the dim outlook for the American economy. " China holds $2 trillion of hard currency reserves, roughly 70% in dollars.

The United States depends on inflows of capital from China, Japan and the oil rich Gulf states to cover our yawning trade and budget deficits. " China has enormous sovereign wealth resources that it is using to underwrite long term contracts with suppliers of natural resources around the world and to buy into critical technology based industries. "

Senior Chinese officials recently have stated publicly that they are concerned by its large, continuing investments in US financial paper given: low interest rates, the US' parlous financial state, and China's vulnerability to a drop in the dollar's exchange rate. " The same officials have proposed a gradual move to wean the world's economy off the dollar and to replace it with a world currency modeled on the IMF managed Special Drawing Rights (SDRs) "

The privileges that the United States has enjoyed from the dollar's status as an international reserve and transaction currency are going to be progressively reduced. That means: domestic policy will have to more attentive to constraining international monetary conditions, i.e. higher interest rates, fiscal discipline, and a reduction in the money available to apply to foreign policy objectives - military and civilian.

IMPLICATIONS: ECONOMY

1. The United States will have to choose between observing the strictures placed on other countries who find themselves in financial straits or run the risk of a further deterioration of the dollar's value and growing difficulty in financing its twin deficits.

2. The United States will lose influence in the IMF and, to a lesser extent, in the World Bank. As a greater share of their capital is provided by China and other Asian countries, Washington will lose its veto in the IMF as its relative share of contribution based voting rights goes down. Its indirect influence over decisions by both bodies with decline as the world's dependence on the dollar and American financial oversight globally drops sharply. Too, it will suffer a further decline from the discrediting of the American version of market fundamentalist capitalism. Campaigns to pressure others to follow the American model and to open their economic to American financial interests have lost credibility.

3. International financial management will have to become truly multilateral as the United States, with some of its European partners in train, is no longer in a position to call the shots.

4. Working out the terms of that multilateral management, and making the requisite organizational adjustments, will be the prime test of whether the United States and China can work together to each other's mutual benefit and in the interest of global economic stability.

5. Mutual economic dependency is the overriding reality - whatever the exact balance. China has it within its power to bring the American economy to its knees overnight by using its financial firepower on world markets. However, by doing so it would do grievous damage to its own economy. It would be akin to Samson bringing down the temple on himself. In other worlds, a condition of Mutual Assured Destruction exists with similar stabilizing consequences.

POLICY IMPLICATIONS

1.American strategy should aim at adapting to China's growing politico-economic strength rather than containing it. While competition for resources and markets will be a feature of the relationship, emphasis should be place on reaching agreement on the rules of the game - formal and informal.

2. The United States should anticipate a larger voice for China, and other substantial contributors, to expanded IMF loan facilities, by: (1) engaging them more directly in Fund's governance, in the necessary review of lending practices, and in

the organization's enhanced oversight functions; and (2) rethinking the doctrinal foundation of present policies who ineffectiveness and unfairness have been highlighted by the current crisis.

3. Be prepared to join in an orderly process for loosely managing a smaller role for the dollar in global economic transactions.

4. Offer sympathetic support for the building of East Asian regional monetary area so as to be in a position to ensure its compatibility with global institutions.

5. Above all, it is imperative to put the United States' economic house in order. That entails: imposing strict regulatory controls financial institutions and the innovative practice that are the source of the current crisis; qualify the premise that the opening of financial markets in other countries on American terms serves the nation's national interest; take steps to reverse the hollowing out of the manufacturing sector; move toward a marked reduction of the trade deficit before global markets and foreign governments do so by forcing the adoption of austerity policies; curb bloated budget deficits and the attendant dependence on foreign purchase of Treasury debt.

6. Prepare Americans, psychologically as well as politically and economy, for the loss of supremacy and its privileges. This is a condition for effective implementation of the above noted policy recommendations.

POLITICAL IMPLICATIONS

1. China's 'soft power' is rising, America's is declining. That refers above all to economic influence. In turn, that enhances the attraction of China as a model for others -especially in Asia and the NIC and LDC countries generally.

2. China will be able to use diverse economic instruments to win favor around the world just as the United States has done for 60 years.

3. Financial constraints in the United States will make it more and more difficult to sustain current levels of military expenditure. The burden of costly campaigns in places like Iraq and Afghanistan will become onerous. This condition may induce the United States to reconsider the inordinate prominence that it gives to military force to achieve its objectives abroad. The sort of fundamental strategic rethink that demands will be painful and strongly resisted.

4. The greatest, and in many ways the most telling effect will be on American self-esteem. Americans believe them destined by Providence or History to lead the world into a more enlightened state. Our exceptionality explains and requires that we be number one in all fields of endeavor that count. It demands as well that the rest of the world recognize this exceptionality and the prerogatives attendant upon it. As the United States slips economically, politically and in its worldwide image, the country will be hard pressed to reconcile those realities with it s exalted sense of self.

5. China matches in the United States in the depth of its belief in its own exceptionality. Historically, China as Heaven's Middle Kingdom was felt to stand at the apex of earthly attainments. There is a basic difference between the two countries' self image, however. The United States' sense of exceptionality and uniqueness is closely tied to its sense of mission as model and agent of world progress. Others are presumed to emulate the United States in aspiring to its achievements. The Chinese by contrast have no sense of mission. After all, to their way of thinking, no other people is capable of matching them. This may be a good thing in that there is no inevitable clash between two proselytizing nations.

Michael BRENNER
University of Pittsburgh

İsaxan İSAXANLI

ŞEİR GÜLÜSTANININ TƏKRAROLUNMAZ ÇİÇƏYİ – SERGEY YESENİN

Sergey Yesenin insan doğulmaqdan daha çox təbiətin, müstəsna olaraq poeziya üçün, ucsuz-bucaqsız tarlaların kədərini, yer üzündəki hər bir canlıya məhəbbəti və insanın hər şeydən çox haqq etdiyi mərhəməti vəsf etmək üçün yaratdığı bir orqandır.

Maksim Qorki

DAHİLİYƏ APARAN YOL


S.Yesenin,1922


Hələ tələbəlik illərimdən Yeseninin şeirlərini sevə-sevə oxuyur, onlardan bir çoxunu, o cümlədən "İran nəğmələri"ni ("Персидские мотивы") əzbərdən bilirdim. Ali məktəbi bitirdikdən sonra, 1985-1987-ci illərdə Rusiyanın Ulyanovsk vilayətində işlədiyim dövrdə Yesenin poeziyasına daha çox həvəs göstərməyə başladım və bu həvəs məni indi də bu sehrli poeziyadan ayrılmağa qoymur.

Sergey Yesenin – mayası sevgi ilə yoğrulmuş böyük rus şairi. Sevgi poeziyasından söhbət açanda, əlbəttə, Yesenin-siz keçinmək mümkün deyil. Sevgi şeirləri ilə, incə lirikası ilə taxt qurmuşdur oxucularının qəlbində Yesenin.

1895-ci il oktyabr ayının 3-də Ryazan quberniyasının Konstantinovo kəndində dünyaya gələn Yesenin 2 yaşından ana babasının himayəsində böyüyür, onun tərbiyəsini görür. Qapalı kilsə müəllimliyi məktəbində oxuyur. Təxminən 9 yaşından şeirlər yazmağa başlasa da, əsl yaradıcılığını 16-17 yaş dövrünə aid edirdi Yesenin özü.

17 yaşında Yesenin Moskvaya gəlir və Şanyavski Universitetinə qəbul olunur. İl yarım oxuduqdan sonra maddi problemlərlə üzləşən Yesenin doğma kəndinə qayıdır. Buradan şeirlərini müxtəlif jurnallara göndərsə də, onları dərc etmirlər və o, Peterburqa gedir. Yesenin burada Blok, Qorodetski və Klyuyevlə tanış olur və bu tanışlıq onun yaradıcılığına öz müsbət təsirini göstərir. 1925-ci ilin oktyabrında yazdığı tərcümeyi-halında Yesenin deyir: "Müasir şairlərdən ən çox Blok, Belıy və Klyuyev xoşuma gəlir. Belıy forma baxımından mənə çox şey verdi, Blok və Klyuyevdən isə lirikanı öyrəndim" (2; T-5, səh.230).

Bir müddət sonra Yesenin yenidən Moskvaya gəlir. 1915-ci ildən başlayaraq Moskvanın ən yaxşı jurnalları onun şeirlərini dərc etməyə başlayır, birbirinin ardınca şeirlər kitabları buraxılır və Yesenin böyük populyarlıq qazanır.



S.Yeseninin doğulduğu ev
Ryazan, Konstantinovo kəndi

YESENİNİN SEVDİYİ VƏ YESENİNİ SEVƏN QADINLAR

Bu bölmədə biz Yeseninin yaradıcılığında və şəxsi həyatında müəyyən mənada rol oynamış qadınlardan söhbət açacağıq.



Anna Sardanovskaya *(1895-1922). Yeseninin ilk məhəbbəti. Yesenin 1916-cı ildə yazdığı "За горами, за желтыми долами..." şeirini Annaya həsr etmişdi. Bu günə qədər çap edilməsə də, Yeseninin Anna ilə məktublaşmaları mövcuddur. Yeseninin Annaya «Зачем зовешь» adlı daha bir şeir həsr etməsi faktı var. Lakin həmin şeirin mətni hələlik tapılmamışdır(2; T-1, səh.380).*



Anna İzryadnova *(1891-1946). Yeseninin ilk ailə qurduğu qadın (3 yanvar 1913-cü il) Anna İzryadnovadır. Yeseninin işlədiyi Sıtin mətbəəsində korrektor kimi çalışan sadə bir qız. Onların birgə həyatı təxminən 3 il sürür və ayrılırlar. Yeseninin Annadan Yuri adında bir oğlu dünyaya gəlir. (O, 1937 ci ildə güllələnmişdir). Ayrılmasına baxmayaraq, Yesenin ömrünün sonuna qədər Anna ilə əlaqə saxlamışdır.*



Zinaida Rayx *(1894-1939). Yeseninin ikinci arvadı (1917) «Delo naroda» qəzetində katibə işləyən, həddindən artıq gözəl Zinaida Rayx olmuşdur. Zinaidadan Yeseninin 2 uşağı – Konstantin (ad Yeseninin doğulduğu kəndin şərəfinə verilmişdir) və Tatyana (ad Yeseninin anası Tatyana Fyodorovanın şərəfinə verilmişdir) dünyaya gəlir. 1921-ci ilin oktyabrında onlar ayrılır və bundan sonra Zinaida Yeseninin dostu rejissor Meyerxolda ərə gedir və onun teatrında aktrisa kimi çalışır. Yesenin 1924-cü ildə yazdığı "Письмо к женщине" şeirini və bir sıra başqa şeirlərini Zinaidaya həsr etmişdi. 1939-cu ildə Meyerxold həbs edilir və Zinaida Rayx öz mənzilində qətlə yetirilir.*



Nadejda Volpin *(1900-1998). 1920-ci ildə Yeseninin şairə Nadejda Volpin ilə isti münasibətləri formalaşır. Rəsmi nikaha girmədən, təxminən 4 il münasibətləri olur. Ayrıldıqdan sonra, 12 may 1924 - cu ildə bir oğlu dünyaya gəlir. (Riyazi məntiq sahəsində tanınmış mütəxəssis, filosof, eləcə də şair Aleksandr Sergeyeviç Yesenin-Volpin 1972-ci ildən Amerikada yaşayır). Nadejda Volpin 1980-ci ildə Yeseninə həsr edilmiş "Свидание с другом" memuarını çap etdirir. Şairin "İran nəğmələri" silsiləsindən məşhur "Шаганэ ты моя, Шаганэ" şeirində vəsf etdiyi şimallı qız (Там, на севере, девушка тоже, На тебя она страшно похожа, Может, думает обо мне...) Nadejda Volpindir.*



Aysedora Dunkan *(1878-1927). 1922-ci il mayın 2-də Yesenin 3-cü dəfə, özündən 17 yaş böyük olan amerikalı rəqqasə Aysedora Dunkan ilə evlənir. Evləndikdən dərhal sonra –mayın 10-da onunla birlikdə Avropa səfərinə çıxır. Özünün yazdığı kimi, İspaniyadan başqa bütün Avropanı, Amerikanı gəzir. Təxminən 15 aylıq səfərdən sonra – 1923-cü il avqustun 3-də Yesenin Moskvaya qayıdır. 1927-ci ildə Aysedora Fransada avtomobil qəzasında həlak olur.*



Qalina Benislavskaya *(1897-1926). Yesenin və Qalina Benislavskaya 1920-ci ilin noyabrında tanış olurlar. Qalina bu tanışlığı belə təsvir edir.* ***"Həmin gündən bir nağıl başladı. Bu nağıl 1925-ci ilin iyun ayına qədər davam etdi. Mənim dözə biləcəyimdən daha ağır həyəcanlara, bütün ağrılara, yaralara baxmayaraq, bu, doğrudan da bir nağıl idi. Bu elə bir nağıl idi ki, nəinki belə bir qısa ömürdə, hətta çox uzun və uğurlu ömürdə də yaşanmaya bilərdi"*** *(3; səh.52). 1925-ci ilin yayında Yesenin S.A.Tolstaya ilə ailə qurması ərəfəsində Qalinadan ayrılır. Yesenini dəli məhəbbətlə sevən Qalina sona qədər onun yoxluğunu qəbul edə bilmir, Yeseninin vəfatının ildönümü ərəfəsində (1926-cı il, dekabrın 3-də) onun məzarı üstündə intihar edir və Yeseninin məzarı yanında dəfn edilir. Qalinanın məzar daşı üzərində ilk vaxtlar aşağıdakı sözlər yazılmışdı: "Vəfalı Qalya". 1924-1925-ci illərdə Yesenin şeirlərinin çapa hazırlanmasında Qalina Benislavskayanın böyük rolu olmuşdur.*



Avqusta Miklaşevskaya *(1891-1977). Yesenin Amerikadan qayıtdıqdan sonra, 1923-cü ilin payızında aktrisa Avqusta Miklaşevskaya ilə tanış olur. Həmin ilin sentyabr-dekabr dövründə Yesenin 7 şeirdən ibarət «Любовь хулиана» silsiləsini tamamlayır və bu silsiləni bütövlükdə Avqustaya həsr edir. Onlar son dəfə 1925-ci ilin noyabrında görüşürlər.*



Şaqanе Talyan *(1900-1976). Yesenin Batumda olduğu dövrdə (1924-cü il dekabrın sonu -1925-ci il yanvarın əvvəli) rus dili müəlliməsi Şaqane ilə isti münasibətləri olmuşdur. Onların sevgi romanı elə bu qısamüddətli görüşlə də sona yetir və bir daha görüşmürlər. Məşhur "İran nəğmələri"nin bir neçə şeirinin Şaqaneyə həsr edildiyi məlumdur.*



Sofya Tolstaya *(1900-1957). 1925-ci il sentyabrın 18-də Yesenin 4-cü və son dəfə dahi rus yazıçısı Lev Tolstoyun nəvəsi Sofya Tolstaya ilə evlənir. Yeseninin müxtəlif vaxtlarda müxtəlif ünvanlara yazdığı məktubların bu günümüzə gəlib çatmasında, şeirlərinin yazılma tarixinin dəqiqləşdirilməsində, ümumiyyətlə Yeseninin ədəbi irsinin qorunmasında S.A. Tolstaya-Yeseninanın əvəzsiz xidmətləri olmuşdur.*

YESENİN BAKIDA

Yeseninin yaradıcılığı haqqında danışanda onun Bakı həyatı haqqında söhbət açmamaq mümkün deyil. Bakı dövrü Yeseninin özü üçün yaradıcılıq baxımından çox məhsuldar olması ilə yanaşı, Azərbaycan poeziyasevərləri üçün xüsusilə əzizdir. Bircə onu qeyd etmək kifayətdir ki, sevgi poeziyasında öz xüsusi yeri olan "İran nəğmələri" silsiləsindən bir sıra şeirlər burada – Bakıda yazılmışdır.

Yeseninin yaxın dostu, MK-nin 2-ci katibi, "Bakinski raboçi" qəzetinin baş redaktoru P.İ.Çaginin (4) və onun kiçik qardaşı V.İ. Boldovkinin xatirələrində (5) Yeseninin Bakı səfərləri haqqında xeyli maraqlı məlumatlara rast gəlirik. Bu xatirələr və Yeseninin Tiflisdən, Batumdan, Rostovdan, Bakıdan müxtəlif ünvanlara (əsasən Q.A. Benislavskaya, A.A.Berzin) yazdığı məktubların (2; T-6, 6; T-3) təhlili onun Bakıda olduğu günlər haqqında ən dəqiq məlumatların əldə edilməsini təmin edir. Məsələ burasındadır ki, araşdırdığımız yazılı mənbələrin heç birində Yeseninin Bakıda olduğu müddətlər haqqında dəqiq məlumata rast gəlmədik. Yeseninin ilk Bakı səfəri dəqiq göstərilsə də (20 sentyabr 1924-cü il), digər məlumatlar əsasən yaz ayları, payız ayları, yazın sonu, payızın əvvəlləri, aprelin ortaları, sentyabrın əvvəlləri və s. kimi göstərilir. Hətta onun Bakıda 6 dəfə olması haqqında "göydəngötürmə"


S.Yeseninin yaşadığı bağ evi. Bakı, Mərdəkan

məlumata da rast gəlirik (7). Bu səbəbdən müəyyən araşdırmalar apararaq, həmin günlərin dəqiq təqvim xəritəsini müəyyənləşdirməyə çalışdıq.


Beləliklə, Yesenin ilk dəfə Bakıya 1924-cü il sentyabrın 20-də gəlir.

Burada olduğu müddətdə o, Mərdəkanda yaxın dostu P.İ.Çaginin yaşadığı bağ evində qalırdı. Bura vaxtilə məşhur neft milyonçusu Murtuza Muxtarovun şəxsi mülkiyyəti olmuşdur. 1975-ci il oktyabrın 3-də (Yeseninin doğum günü) burada rəsmi Yesenin muzeyi fəaliyyətə başlamışdır. P.İ.Çaginin xatirələrindən aydın olur ki, Yeseninin burada yaşaması, yalnız dost evində yaşamaq kimi başa düşülməməlidir. Məsələ burasındadır ki, həmin vaxtlar İrana getmək, dahi Şərq şairlərinin – Hafizin, Xəyyamın, Sədinin, Firdovsinin qədim diyarını gəzmək arzusu Yesenini rahat buraxmırdı. Yesenini və onun yaradıcılığını çox sevən S.M.Kirov İran səfərinin Yeseninin həyatı üçün təhlükəli ola biləcəyi səbəbi ilə onun İrana getməsini istəmirdi. Bu səbəbdən də o, P.İ.Çaginə tapşırıq vermişdi ki, burada – Bakıda Yesenin üçün İran illüziyası yaratsın. P.İ.Çaginin bağ evi isə özünün bütün memarlıq üslubu və özünəməxsus gözəlliyi ilə bu ideyaya tam uyğun gəlirdi.*

P.İ.Çagin Yeseninlə Bakı görüşünü belə təsvir edir: ***"Sentyabrın 20-də axşam redaksiyaya gələndə kabinetimdə, stolun üstündə bir yazı gördüm: Yoldaş Çagin! Mən gəldim, amma Siz yox idiniz. "Yeni Avropa" otelində yerləşmişəm, № 59. 20. IX. 24. Sergey Yesenin". Qısa müddət sonra o, artıq mənim yanımda idi... 20 sentyabr bakılılar üçün əlamətdar bir gündür: 26-ların xatirə günü. Mən heyf-silənərək söylədim ki, keşkə 1-2 gün tez gələydin, bu haqda yeni şeirlərini qəzetin yubiley sayında verərdik. Amma indi neyləməli, belə bir şeir yoxdur...Bir qədər söhbətdən sonra qərara gəldik ki, məsələni düzəldək. Mən ona 26-ların həyatı haqqında ətraflı materiallar verdim. O, mənim kabinetimi bağladaraq aludəçiliklə materialları oxumağa başladı. Səhər işə gələndə stolun üstündə "26-lar haqqında ballada"nı gördüm. Bu incinin müəllifi isə divanda yuxulayırdı. 26-lar haqqında ballada "Bakinski raboçi" qəzetinin 22 sentyabr tarixli sayında dərc edildi"*** (4; səh.160-161).

Yeseninin Bakıya gəlməsindən bir neçə gün əvvəl P.İ.Çaginin kiçik qardaşı V.İ. Boldovkin də İrandan Bakıya gəlmişdi (V.İ. Boldovkin SSRİ-nin Tehrandakı səfirliyində işləyirdi) və o, Yeseninin Bakıda olduğu bütün vaxt ərzində (oktyabrın 6-a qədər) onunla birlikdə olmuşdur. V.İ. Boldovkinin xatirələrindən aydın olur ki, Yesenin onun tezliklə İrana qayıdacağını eşidəndə çox təsirlənir və onunla birlikdə İrana getmək istədiyini deyir. " ***Pyotr*** (*P.İ.Çagin* – **İ.İsaxanlı**) ***mənə dedi ki, sən tezliklə İrana qayıdırsan, mən səninlə İrana getmək, bu möcüzə şərq ölkəsini görmək istəyirəm...Biz dənizkənarı bulvarı və İçəri şəhəri dolaşdıq, Sergey aludəçiliklə tarixi abidələrlə maraqlanırdı. Məşhur Qız Qalasını, Karvansarayı seyr edərək, Sergey mənə İran haqqında saysız suallar verirdi, hiss edirdim ki, İran onu rahat buraxmır, özünə çəkirdi. Gecəyarı biz evə gəldik, Sergey məndən əl çəkmirdi, nədən söhbət açsaq da, sözü İrana gətirirdi"*** (5). Həmin axşam V.İ. Boldovkin Yeseninə Şərq haqqında, İran haqqında müxtəlif əfsanələr danışır, İranın şəhərlərinin gözəlliyindən, oradakı şərq bazarlarından, çadralı qadınlardan, çaydan, çayxanalardan və s. haqda ətraflı söhbət açır: ***"Artıq gecə yarı olmuşdu, Sergey isə məni sual atəşinə tutmuşdu. Biz yatmağa gedəndə artıq işıqlaşırdı. Mən***

** Yeseninin burada yaşaması ilə bağlı başqa bir versiya da mövcuddur. Bu haqda yazıçı Qılman Ilkin deyir: "Atam 20-ci ildə vəfat edib. O, Murtuza Muxtarovun bağında tikinti işlərinə baxan əsas usta idi. Onun vəfatından sonra mən də yay tətillərində gedib orda işləyirdim... Həmin vaxtlarda Sergey Yesenin Muxtarovun bağında qalırdı. Onu tez-tez görürdüm. Şərq klassik şeirinə vurğun olan Yesenin İrana getmək istəyəndə Sergey Kirov, Azərbaycanın ovaxtkı birinci katibi, onu aldadıb paroma oturtmuş və Xəzərə çıxardıb Zirə, Hövsan, Zığ sahilləri ilə gətirib çıxarmışdılar Mərdəkana ki bura İrandır. Əvvəl inanmışdı. Sonra başa düşəndə, o qədər də inciməmişdi. Çünki bura da onun ürəyincə idi"(39).*



S.Yesenin və V.Boldovkin
Bakı, 24 may 1925

ayıldığımda Sergey geyinib-gecinib stol arxasında oturmuşdu. Səhər yeməyində o bizə "Улеглась моя былая рана..." şeirini oxudu və dedi ki, "bilirsən Vasya, Mən Şərq haqqında, İran haqqında tam bir şeirlər silsiləsi yazmaq istəyirəm. Köhnə, qədim İran, yeni İran haqqında, necə varsa elə! Mən vəzifəli yoldaşlarla danışmışam, bəlkə elə səninlə birlikdə getdik." Hər gün onun qələmindən bir neçə şeir süzülürdü. Bax, məşhur "İran nəğmələri" belə yarandı" (5).


Bir məqama diqqət yetirək. Xatirələrin müəllifi həmin gün Yeseninin "Улеглась моя былая рана..." şeirini oxuduğunu yazır. Əgər bu şeir tam hazır olsaydı, Yesenin onu mütləq Bakıda – "Bakinski raboçi" qəzetində dərc etdirərdi. Lakin şeir təxminən 3 ay sonra, özü də Batumda dərc edildi ("Trudovoy Batum" qəzeti, № 280, 10 dekabr 1924, Batum). Buradan belə nəticəyə gəlmək olar ki, həmin gün Yesenin şeirin ilkin variantını və ya yazılmış müəyyən hissəsini oxumuş, şeiri bütövlükdə isə Batumda tamamlamışdır.

Yesenin arzusunda olduğu İranı görə bilmədi. Oktyabrin 6-da Yesenin Bakıdan Tiflisə, oradan da Batuma gedir.

Yesenin növbəti dəfə Bakıya 1925-ci il martın 30-da gəlir və mayın 25-nə qədər burada olur. May ayının 25-də Yesenin Moskvaya qayıdır. Yeseninin V.İ. Boldovkinə həsr etdiyi məşhur "Прощай, Баку" şeiri onun Bakını tərk etdiyi gün – "Bakinski raboçi" qəzetinin 25 may 1925-ci il tarixli sayında dərc edilmişdi.

Yesenin "Əlvida, Bakı" yazsa da, Bakıdan ayrıla bilmir və iyul ayının 28-də nişanlısı S.A.Tolstaya ilə yenidən Bakıya gəlir və sentyabrın 3-nə qədər Bakıda olur. Bu, Yeseninin Bakı ilə son görüşü idi. Moskvaya qayıtdıqdan sonra, sentyabrın 18-də Yesenin S.A.Tolstaya ilə rəsmi nikaha girir. S.A.Tolstaya -Yeseninanın dediyinə görə, bu son Bakı səfərində Yesenin əsasən "İran nəğmələri" silsiləsinin tamamlanması üzərində işləmişdir. Moskvaya qayıtdıqdan sonra isə "rus qışı" (russkaya zima) haqqında silsilə şeirlər yazmaq arzusunda olub. Bu silsilənin birinci şeirini ("Эх вы, сани! А кони, кони!..") Yesenin Moskvada "Novıy mir" jurnalının noyabr (№ 11) nömrəsində çap etdirmişdir. Son 3 ayda, düz ölümünə qədər Yesenin bu mövzu üzərində işləmişdir (2; T-1, səh.419).

P.İ.Çaginin xatirələrindən aydın olur ki, S.M.Kirov Yesenin poeziyasını çox sevir və onun yaradıcılığına xüsusi diqqət yetirirdi. Yesenin Bakıda olduğu müddətdə də Kirov onunla bir neçə dəfə görüşmüşdür. Xatirələrdə oxuyuruq: ***"Biz Mərdəkandakı bağ evinə gəldik. S.M.Kirovun iştirakı ilə keçən bu məclisdə Yesenin "İran nəğmələri"ndən yeni yazdığı bir neçə şeirini böyük şövqlə və təkrarolunmaz tərzdə oxudu. Bundan sonra Kirov dedi: gör necə yazıb, sanki orada olub"*** (4; səh.162).



S.Yesenin və P.Çagin
Bakı, 1924

Kirov həmişə imkan olduqca Yeseninin həyatı ilə maraqlanır, ona arxa durmağa çalışırdı. ***"1925-ci il dekabrın sonlarında Moskvaya partiyanın 14-cü qurultayına gəlmişdim. Tənəffüsdə Kirov məndən Moskvada Yesenini görüb-görmədiyimi soruşdu. Mən cavab verdim ki, məndə olan məlumata görə o, Leninqrada gedib. "Lap yaxşı, onu qorumağa davam edəcəyik. Bir neçə gündən sonra oradayıq". Əvvəlcə mən anlamadım. Söhbətin sonrasından məlum oldu ki, MK-da S.M. Kirovun Leninqrada birinci katib, mənim də oraya "Krasnaya qazeta" ya baş redaktor göndərilməyimiz haqqında qərar qəbul edilib. Çox təəssüf ki, onu qorumaq mümkün olmadı. Sabahısı gün Sergey Yeseninin ölüm xəbəri yayıldı*** (4; səh.164).

KHAZAR UNIVERSITY

FINAL EXAM SCHEDULE

Spring 2009

Department of English Language & Literature

DATE	HOUR	SKILLS	SCHOOL	ROOM	INSTRUCTOR
Monday, June 1, 2009	9:00-10:20	Writing 2 (A)	SHSS	314	Shafag Babayeva *(Sabina K, Alyona D.)*
		Writing 2 (A)	Engineering	412	Gunel Mammadova *(Milana A ,Shafag B)*
		Writing 2 (D)	SHSS	507	Arzu Guliyeva *(Sevda I., Aysel A.)*
		Writing 1	Engineering	415	Afag Gasimova *(Tarana B, Hamiya B)*
		Writing 1(B)	SHSS	504	Afag Gasimova *(Gunel M, Arzu G)*
	10:30-11:50	Writing 2 (B)	SHSS	314	Shafag Babyeva *(Sabina K.,Milana A)*
		Writing 2 (B)	Engineering	411	Gunel Mammadova *(Tarana B.,Hamiya B)*
		Writing 2 (E)	SHSS	507	Arzu Guliyeva *(Aysel A., Alyona D.)*
		Writing 2 (failed)	SHSS	504	Hamiya Bakhishova *(Gunel M, Aygun M)*
		Writing 1(A)	SHSS	304	AfagGasimova *(Sabina K, Arzu G)*
	12:10-13:30	Writing 2 (C)	SHSS	504	Milana Abbasova *(Shafag B, Hamiya B)*
		Writing 2 (Edu)	Education	216	Hamiya Bakhishova *(Milana A, Sevda I)*
		Writing 2 (C)	Engineering	412	Alyona Dvortsova *(Gunel M, Khalida G)*
Wednesday, June 3, 2009	9:00-10:20	Reading 2 (E)	SHSS	507	Tarana Boyukzade *(Sevda, I, Arzu G)*
		Reading 2 (B)	Engineering	411	Sabina Kerimova *(Tarana B, Milana A)*
		Reading 2 (C)	Engineering	414	Milana Abbasova *(Sabina K, Hamiya B)*
		Reading 1 (B)	SHSS	314	Hamiya Bakhishova *(Tarana B.,Arzu G)*
		Reading 1 (A)	SHSS	304	Sevda Ismayilova *(Gunel M, Parvana I)*
	10:30-11:50	Reading 2 (A)	SHSS	504	Firangiz Nassirova *(Tarana B, Hamiya B)*
		Reading 2 (C)	SHSS	507	Tarana Boyukzade *(Sevda I, Alyona D)*
		Reading 2 (D)	SHSS	314	Sevda Ismayilova *(Aysel A, Aygun M)*
		Reading 2 (A)	Engineering	412	Sabina Kerimova *(Shafag B, Parvana I)*
		Reading 1	Engineering	415	Alyona Dvortsova *(Kamala S, Tarana B)*
	12:10-13:30	Reading 2 (B)	SHSS	504	Firangiz Nassirova *(Aygun M, Sevda I)*
		Reading 2 (failed)	SHSS	307	Sevda Ismayilova *(Gunel M, Hamiya B)*
		Reading 2 Education	Education	411	Kamala Seyfiyeva *(Milana A, Shafag B)*
		Reading 1(C)	SHSS	507	Kamala Seyfiyeva *(Alyona D, Khalida G)*
Thursday, June 4, 2009	10:30-11:50	Gram advanced (A,B)	SHSS	314	Aysel Azimova *(Gunel M, Parvana I)*
		Gram advanced (C,D)	SHSS	504	Gunel Mammadova *(Aysel A, Milana A)*
		Gram pre advanced	SHSS	304	Milana Abbasova *(Afag G,)*
Friday, June 5, 2009	10:30-11:50	ESL adv (A, B)	SHSS	504	Lydia Gamidova *(Aygun M, Milana A)*
		ESL adv (C, D)	SHSS	304	Aygun Mammadova *(Tarana B, Hamiya B)*
		ESL pre adv (A)	SHSS	314	Gulhayat Abdullayeva *(Sevda I, ,Aysel A)*
	12:10-13:30	ESL pre adv (B)	SHSS	507	Khalida Gasimova *(Aysel A, Sabina K)*
		ESP	SHSS	314	Rasmiya Badirova *(Gunel M, AyselA)*
		Advanced English	Engineering	414	Eldar Shahgaldiyev *(Rasmiya B, Khalida G)*

School of Architecture, Engineering and Applied Science

Date	Time	Subject	Instructor	Room №
01.06.09	09:00	Writing 1	Afaq Qasımova	415
01.06.09	09:00	Writing 2 (A)	Gunel Mammadova	412
01.06.09	10:30	Writing 2 (B)	Gunel Mammadova	411
01.06.09	12:10	Writing 2 (C)	Alyona Dvortsova	412
03.06.09	09:00	Reading 2 (B)	Sabina Kerimova	411
03.06.09	09:00	Reading 2 (C)	Milana Abbasova	414
03.06.09	10:30	Reading 1	Alyona Dvortsova	415
03.06.09	10:30	Reading 2 (A)	Sabina Kerimova	412
05.06.09	12:10	Advanced English	Eldar Shahgaldiyev	414
06.06.09	10:30	Drilling Engineering	Elnur Amirov	304
06.06.09	12:10	Basics of Law (az,rus)	Leyla Mammadova	304
08.06.09	11:40	Int. to Econ.(az)	Fuad Rasulov	304
08.06.09	15:00	Int. to Econ. (rus)	Fuad Rasulov	304
09.06.09	09:00	Physics 1	Hikmat Hasanov	304
09.06.09	11:00	Physics 2	Hikmat Hasanov	304
09.06.09	14:30	Computer Graph.	Saxavat Talıbov	504
11.06.09	09:30	Non-Newton Systems	Arif Mamadzade	314
11.06.09	12:00	Int. to Comp. Sc.	Etibar Rzazada	416
12.06.09	09:00	Comp. Appl. (1)	Etibar Rzazada	416
12.06.09	12:00	Comp. Appl. (2)	Etibar Rzazada	416
12.06.09	15:00	Comp. Appl. (3)	Etibar Rzazada	416
12.06.09	16:30	Chemistry 2	Ziyafatddin Asadov	314
16.06.09	12:10	Az. History (az)	Roza Arazova	304
16.06.09	15:00	Az. History (rus)	Roza Arazova	304/314
17.06.09	11:30	Lin. Algebra	Nigar Aslanova	304/314
17.06.09	14:30	Petrol. Production	Arif Mamadzade	304
19.06.09	09:30	Engineering Mechanics	Azer Ahmadov	304
19.06.09	11:30	Calculus 2	Nigar Aslanova	304
20.06.09	10:00	Az. Literat. (az)	Aydın Abilov	304
20.06.09	11:30	Az. Literat. (rus)	Aydın Abilov	304/314
23.06.09	10:00	Electronics	Rafig Ahmadov	412
23.06.09	15:30	Geology	Gasham Zeynalov	504
25.06.09	11:00	Networking	Saxavat Talıbov	415
25.06.09	13:00	Basics of Law (F)	Leyla Abdulayeva	415
27.06.09	09:00	Data Structure	Aygun Alasgarova	412
27.06.09	11:30	Environment	Leyla Muradkhanlı	304

School of Economics and Management

Subject	Instructor	Date and time
FIRST YEAR		
Reading 2(A)	Kamala Mahmudova	June 1 10:30
Reading 2(B)	Afat Alakbarova	June 1 10:30
Reading 1(B)	Kamala Mahmudova	June 1 12:10
Reading 2(C)	Saadat Farhadova	June 1 12:10
Writing 2 (A)	Kamala Mahmudova	June 3 10:30
Writing 2 (B)	Afat Alakbarova	June 3 10:30
Writing 2 (C)	Saadat Farhadova	June 3 10:30
Reading 1(A)	Judyth Marie Pickford	June 5 9:00
Writing 1 (A)	Judyth Marie Pickford	June 5 10:30
Reading 2	Judyth Marie Pickford	June 5 12:10
Writing 2	Judyth Marie Pickford	June 5 13:40
Introduction to Business	Fuat Rasulov	June 9 9:00
Azerbaijan History 1	Roza Arazova	June 11 10:30
Azerbaijan History 2	Roza Arazova	June 11 12:10
Azerbaijan History 3	Roza Arazova	June 11 13:40
Azerbaijan Literature 1	Konul Guliyeva	June 17 13:40
Azerbaijan Literature 2	Konul Guliyeva	June 17 15:10
Family Law	Akif Alizade	June 20 9:00
Classic Music	Yegana Akhundova	June 20 9:30
Introduction to C.S.	Fuad Afandiyev	June 25 13:40
SECOND YEAR		
French 1	Faramaz Bagirov	June 2 9:00
French 2	Faramaz Bagirov	June 2 10:30
ESP 1	Saadat Farhadova	June 5 9:00
ESP 2	Saadat Farhadova	June 5 10:30
Financial Accounting	Elmar Rahimov	June 6 15:10
Microeconomics 1	Elvin Afandi	June 8 18:30
Calculus	Asif Nabiyev	June 9 15:10
Azerbaijan Literature 3	Tamilla Aliyeva	June 10 9:00
Azerbaijan Literature 4	Tamilla Aliyeva	June 10 13:40
Azerbaijan Literature 5	Tamilla Aliyeva	June 10 15:10
Microeconomics 2	Ramin Alakbarov	June 11 18:30
Mathematics for Economics	Rovshan Guliyev	June 12 18:30
Management	Chingiz Mammadov	June 16 18:30
Public Health	Sabina Jafarova	June 19 18:30
Financial Accounting	Alakbar Akbarov	June 24 18:30
Computer Applications	Fuad Afandiyev	June 25 10:30
Mathematics for Economics	Gursel Aliyev	June 27 12:10

THIRD YEAR			
International Trade	Elman Feyziyev	June 5	18:30
Financial Management	Elmar Rahimov	June 6	12:10
Small Business	Fuat Rasulov	June 9	18:30
Business Statistics	Hikmet Tagiyev	June 13	9:00
Business Communications	Afat Alakbarova	June 17	13:40
Information Technology	Vagif Salimov	June 20	18:30
Financial Management	Kamran Madjidov	June 21	12:10
Macroeconomics	Rovshan Guliyev	June 22	18:30
Management	Khumar Huseynova	June 26	10:30
FORTH YEAR			
International Business 1	Aygul Isayeva	June 6	12:10
International Business 2	Aygul Isayeva	June 6	15:10
Financial Reporting	Mahammad Hashimov	June 8	18:30
Organizational Bahavior	Elchin Rashidov	June 10	18:30
Investment Management	Ramin Alakbarov	June 13	9:00
Managerial Accounting 1	Saadat Yagubova	June 15	18:30
Strategic Management 2	Kamala Huseynova	June 16	18:30
Managerial Accounting 2	Saadat Yagubova	June 18	18:30
Cost Benefit Analysis	Chingiz Orujov	June 20	15:10
Operations Management	Khumar Huseynova	June 22	10:30
Strategic Management 1	Leyla Gozalova	June 23	18:30
Caspian Energy	Ingilab Ahmadov	June 24	18:30
Bank Management	Farid Dadashov	June 25	18:30
MBA			
Contract Law	Altay Mustafayev	June 4	18:30
Financial Management	Afgan Afganli	June 13	9:00
Strategic Management	Kamala Huseynova	June 13	15:10
Business Communication	Syed Ali Mahhamad	June 15	18:30
International Marketing	Murad Tahirov	June 16	18:30
HR Management	Natalia Corobco	June 18	18:30
Financial Markets and Inst.	Nigar Ismayilova	June 19	18:30

School of Humanities and Social Sciences

DATE	TIME	SUBJECT	INSTRUCTOR	ROOM
04.06.09	13.00	Persian-4 (B)	Zivar Huseynova	313
	15.10	Introduction to CS(group E)	Etibar Rzazada	416
	12.10	Introduction to CS(group A)	Nuru Safarov	416
	15.10	Introduction to CS(group B)	Nuru Safarov	416
06.06.09	9.00	Introduction to CS(group C)	Konul Ahmadova	416
	10.00	Lexicology(A,B)	Irina Orujova	314,504
	12.10	Introduction to CS(group D)	Konul Ahmadova	416
	13.00	Translation Practice-4	Firdovsi Karimov	504
		Business and Professional Communication	Khayala Mammadova	314,507
	15.00	Persian-2(A,B)	Zivar Huseynova	504,314
08.06.09	10.00	Azerbaijani Language-2(A,B,C,D)	Elza Ismayilova	504,314,304
	13.00	Azerbaijani Language-1, Modern Azerbaijani language-2	Elza Ismayilova	504,314,
		Modern Azerbaijani Language-3	Elza Ismayilova	504
	15.00	Journalism Researches	Vusal Mammadov	504
09.06.09	10.00	Introduction to Linguistics Introduction to Translation	Firdovsi Karimov Irina Orujova	314,504
	13.00	Introduction to Political Science	Kanan Allahverdiyev	314, 504
	15.00	Modern Political History	Kanan Allahverdiyev	504
10.06.09	10.00	English trough films (A,B)	R.Badirova,Sh.Babayeva	504,314
	13.00	Arabic-5, Arabic-6, Persian-6(A,B)	Tarana Akbarova, Elman Novruzov	504, 314,507
	15.00	Comparative Politics of European Countries	Sanan Mirzayev	504
11.06.09	13.00	Italian-1/2	Kamala Aliyeva	504
	13.00	Japanese-1	Jamila Bakikhanova	314
		Mugham	Arif Babayev	314
	10.00	Editing: Theory and Practice	Knyaz Aslan	504
		Comparative Grammar of Turkish Dialects	Elza Samadova	314
12.06.09	10.00	Political Systems and Institutions	Ilgar Ibrahimli	314, 504
	13.00	Law Enforcement Systems(A,B)	Cabir Khalilov/ Alibaba Rzayev	504, 314,507
13.06.09	10.00	Azerbaijani Literature-1(A,B)	Dilbar Zeynaova .	504, 314
	13.00	Azerbaijani Literature-1(pol+reg+group E)	Konul Guliyeva	314, 504,304
	15.00	Arabic-3(A,B),Arabic-4,Persian-4 (A)	T.Akbarova,K.Hasanova, E.Novruzov	504,314,313

16.04.09	10.00	English for Current Events Arabic-2/Arabic-1	Rena Musayeva Ulkar Abuzarova	504 314,504
	13.00	The Environment of Eastern Languages and Azerbaijani Literature	Reyhan Madatova	504
		Modern English Literature	Rena Musayeva	504,314
	15.00	Methods of Translating and Interpreting	Ramila Mammadova	504
17.06.09	10.00	Translation Practice-1	Ramila Mammadova	314
		History of English Language	Lidiya Hamidova	504,507
	13.00	History of Political Theories	Kanan Allahverdiyev	504, 314
		Azerb. in the system of International Economic Relations	Fikrat Pashayev	504
18.06.09	10.00	Life Science (A,B,C,D)	Kh.Aliyeva/A.Aliyeva	504,314,304
	15.00	Basics of Law	Leyla Mammadova	504,507
19.06.09	10.00	Azerbaijani Dramaturgy	Dilbar Zeynalova	504
		American Studies	Khayala Mammadova	314
	13.00	World English	Khayala Mammadova	504, 314
	15.00	Theory of Literature	Dilbar Zeynalova	504
20.06.09	10.00	English Composition (A,B)	Nushaba Mammadova	504,314
	13.00	History of World Civilizations	Fuad Guliyev	504, 314
	15.00	Political Psychology	Ulkar Isayeva	504
22.06.09	10.00	Academic Writing (A,B)	Nushaba Mammadova	504,314
		Poetry	Hamlet Isakhanli	507
	13.00	General Linguistics (A,B)	Jala Garibova	504, 314, 507
	15.00	Caucasus in World Politics	Anar Rzayev	504
23.06.09	10.00	History of Diplomacy	Baba Bayramli	504
24.06.09	10.00	Earth and Space(A)	Hikmat Hasanov	504, 314
	13.00	Earth and Space(B)	Hikmat Hasanov	504, 314
25.06.09	10.00	International Organizations	Rashad Huseynov	504, 314
	13.00	Public Policy Analyses	Mushfig Aliyev	**504**
		Logics	Elmar Huseynov	314
27.06.09	10.00	Persian Poetry in Translation	Rustam Lazimov	314,507
		Arabic Literature	Tarana Akbrova	504
	13.00	Contemporary Philosophy	Mail Yagubov	504, 507
		Philosophy of Culture	Aghalar Mammadov	**314**
29.06.09	13.00	Personality and Culture	Murad Taghiyev	504
30.06.09	10.00	Contemporary History of European Counties	Araz Aslanly	504, 314
	15.00	Russian-1	Aziza Balakishiyeva	504

School of Law

Subject	Date	Time	Instructor	Room #
Contract law	########	18:30	Altay Mustafayev	Downtown Campus
Basics of Law (Engineering)	########	12:10	Leyla Mammadova	304
Int.Business Law	########	11:30	Altay Mustafayev	504
Election Law	########	15:00	Leyla Mammadova	507
Law Enforcement Systems	########	13:00	Jabir Khalilov/Alibaba Rzayev	504/314/507
Human Rights (2 groups)	13/6/2009	11:30	Saadat Novruzova	
Municipal Law	16/6/2009	14:00	Sariyya Hajiyeva	507
Basics of Law (Humanities)	18/6/2009	15:00	Leyla Mammadova	504/507
Family Law	20/6/2009	9:00	Akif Alizade	Downtown Campus
Advocacy	20/6/2009	11:30	Akif Alizade	504/507
Legal English (2 groups)	23/6/2009	12:00	Leyla Abdullayeva	504/507
Basics of Law (F, Engineering)	25/6/2009	13:00	Leyla Abdullayeva	415
Civil Law 1, Civil Process, Criminal Law 2	27/6/2009	15:00	Akif Alizade, Jabir Guliyev	504
Criminal law 1, Criminal Process, Civil Law 1	29/6/2009	15:00	Jabir Guliyev, Jabir Guliyev, Akif Alizade	504

School of Medicine, Dentistry and Public Health

Date	Time	SUBJECT	INSTRUCTOR	Room
25.05.09	15-00	Prevention medicine	Mohammad Shahbazi	314;313
29.05.09	15-00	Internal diseases(for russian and international group)	Rena Kerimova	314;304;
	16-40	Pharmacology(azeri group)	Fatima Huseynova	313
		Orthodontics		314;313
01.06.09	15-00	Hematology(for all groups) // Pharmacology(international group)	Geyrat Imamaliyev Fatima Huseynova	314,304, 313
	16-40	Epidemiology(for russian)	Erkin Suleymanli	
		Stom therapy(for azeri groups)	Esmira Tariverdiyeva	314;304
02.06.09	15-30	Topography anatomy(for international group)	Elchin Akbarov	314-304
		Stom therapy(for russian groups)	Esmira Tariverdiyeva	
03.06.09	15-30	Topography anatomy(rus)	Elchin Akbarov	314;304
		Surgery 2(international group)	Nadir Zeynalov	
04.05.09	14-30	Stom surgery(for all groups)	Tamara Huseynova	314-313
	16-00	Medical Psychology (for azery groups)	Murad Tagiyev	304
05.06.09	14-30	Gynecology(MB;MD)	Aynura Khalilova	314;313
	15-00	Immunology(rus)	Khuraman Aliyeva	
		Pat/Physiology (azeri)	Khuraman Aliyeva	304;314
	16-40	Pat.Anatomy	Mushfiq Orujov	314

06.06.09	13-30 16-40	Azerb.History Cardiology	Rahmanzade Gunel Geyrat Imamaliyev	307 314
08.06.09	14-30 15-10	Hygien Top. Anatomy (for inter. groups)	Erkin Suleymanli Elchin Akperov	314;304 314;313
09.06.09	14-30 14-30 15-30	Topography anatomy(MD) Surgery (rus) Palliative medicine(for azerb.gr.)	Elchin Akbarov Nadir Zeynalov	304;314 313 304;314
11.06.09	15-30 16-40	Orthopedics Gynecology(rus) Med.Psyhology (for inter.gr.)	Elena Smirnova Ravil Suleymanov Murad Tagiyev	314;304 314,313

13.06.09	14-30
	
	15-30
		Immunology(MB and MD)
		
		Medical genetics // Cl.biochemistry
		Neonatology(russian group)
			Khuraman Aliyeva
			
			Elena Smirnova
			Tarana Gadirova,
			Gulnara Azizova
				314,304
				
				314;304,
				313

16.06.09	14-30 16-00	Pathophysiology(international group) Epidemiology(azeri and stom)	Erkin Suleymanli Elchin Zeynalov	314;304 314;304
19.06.09	15-30	Internal diseases (azeri group) Lab diagnostics(MB) Oral pathology	Natavan Faradjeva Dilshad Mailova Anar Abdullayev	314;304
20.06.09	15-30	Palliative Medicine(for inter.gr.)	Fuad Guliyev	314
23.06.09	15-30	Neurology	Rena Bagirova	314;304
25.06.09	15-30 16-40	Medical Expertise Neonatology(azeri group)	Tahir Hajili Taziba Mirzaliyeva	314;313 314, 313
28.06.09	15-30	Surgery(azeri)	Telman Amirov	314

School of Education

DATE	TIME	SUBJECT	INSTRUCTOR	ROOM
01/06/09	12:10-13:30	Writing-2	Hamiya Bakhshova	216
03/06/09	12:10-13:30	Reading-2	Kamala Seyfiyeva	411
08/06/09	12:10-13:30	Methods of Teaching Mother Tongue	Reyhan Madatova	412
09/06/09	12:10-13:30	Mathematics for Elementary Teachers II	Asiph Nebiyev	411
12/06/09	10:30:11:50	Introduction to Writing	Reyhan Madatova	304
16/06/09	10:30:11:50	Introduction to Education	Isakhan Isakhanli	304
16/06/09	12:10-13:30	Elementary Natural Education	Shamil Aziziov	411
19/06/09	12:10-13:30	Historical and Philosophical Foundations of Education	Gulchin Mehraliyeva	412
19/06/09	13:40-15:00	Carpet Art	Zakir Hasanov	211
22/06/09	10:30:11:50	Azerbaijan Literature	Knyaz Aslan	304
24/06/09	10:30:11:50	World Children Literature	Knyaz Aslan	304
27/06/09	12:10-13:30	World Turkic Culture	Zulfiyya Valiyeva	304
30/06/09	10:30:11:50	Curriculum, Instruction, and Assessment Strategies	Rena Musayeva	304

YESENİN AZƏRBAYCAN DİLİNDƏ

Yeseninin şeirləri bir sıra dillərlə yanaşı Azərbaycan dilinə də tərcümə edilmişdir. İlk dəfə Yesenin yaradıcılığına Süleyman Rüstəm müraciət etmişdir. Süleyman Rüstəm 1928-ci ildə Yeseninin "İran nəğmələri" silsiləsindən olan "В Хорассане есть такие двери» şeirini Azərbaycan dilinə tərcümə etmişdir. O, həmin şeiri əski əlifba ilə çıxan "İnqilab və mədəniyyət" (17) jurnalında dərc etdirmiş və 2 il sonra ayrıca kitab şəklində çıxan "Addımlar" şeirlər toplusuna (18) daxil etmişdir. Qeyd edək ki, Yeseninin Bakı həyatının ən fəal araşdırıcılarından olan Əmirxan Xəlilovun əsərində (19; səh.67) bu şeirin dərc olunduğu ilkin mənbə göstərilərkən qeyri-dəqiqliyə yol verilmişdir. Belə ki, həmin şeir göstərilən jurnalın 16-cı səhifəsində dərc olunduğu halda, adı çəkilən mənbədə bu 22-ci səhifə kimi göstərilmişdir. Süleyman Rüstəmdən sonra yenə bir sıra şairlərimiz – Ələkbər Ziyatay, İsmayıl Soltan, Ş. Sadiq, Rəfiq Zəka, Əliağa Kürçaylı, Əhməd Cəmil, Nüsrət Kəsəmənli, Səyavuş Məmmədzadə, Mahir Qarayev, Ramiz Rövşən, Qoca Xalid, Firuz Mustafa, Eyvaz Borçalı, Eldar Nəsibli Sibirel, Knyaz Aslan, Anar, Hamlet İsaxanlı (20-37) müxtəlif vaxtlarda öz qələmlərini Yeseninin şeirlərinin azərbaycancaya tərcüməsi üzərində sınamışlar. Yeseninin Azərbaycan dilinə ən çox tərcümə edilən 2 şeiri «Прощай, Баку» və «До свиданья, друг мой, до свиданья» şeirləridir. Əmirxan Xəlilov «Прощай, Баку» şeirinin ilk dəfə Rəfiq Zəka tərəfindən tərcümə edildiyini qeyd edir (19; səh.69). Lakin tədqiqatçı bu şeirin Rəfiq Zəkadan 9 il əvvəl Ələkbər Ziyatay tərəfindən tərcüməsinin varlığını unutmuşdur. Ələkbər Ziyatay 1955-ci ildə Yeseninin anadan olmasının 60 illiyi münasibətilə «Прощай Баку» şeirini tərcümə etmişdir və həmin şeir "Rus şairləri Azərbaycan haqqında" adlı tərcümələr toplusunda dərc olunmuşdur (20; səh.34-35). Beləliklə, «Прощай, Баку» şeirinin ilk tərcüməsi Rəfiq Zəkaya deyil, Ələkbər Ziyataya məxsusdur. Ümumiyyətlə, «Прощай, Баку» şeiri 7 müəllif – Ələkbər Ziyatay (1955), Rəfiq Zəka (1964), Əhməd Cəmil (1974), Əliağa Kürçaylı (1975), Knyaz Aslan (2005), Firuz Mustafa (2005), Eldar Nəsibli Sibirel (2006), «До свиданья, друг мой, до свиданья» şeiri isə 8 müəllif – Ş.Sadiq (1959), Əliağa Kürçaylı (1965), Anar (1973), Nüsrət Kəsəmənli (1974), Knyaz Aslan (2005), Firuz Mustafa (2005), Eyvaz Borçalı (2006), Eldar Nəsibli Sibirel (2006) tərəfindən tərcümə edilmişdir. Yuxarıda adları çəkilən tərcüməçilər arasında Yesenin yaradıcılığına ən çox müraciət edən Əliağa Kürçaylıdır. O, ilk dəfə 1965-ci ildə Yeseninin anadan olmasının 70 illiyi münasibətilə onun şeirlərini Azərbaycan dilinə tərcümə edərək, ayrıca kitab kimi nəşr etdirmişdir (25). Sonralar həmin tərcümələr, başqa şeirlər də əlavə edilməklə, yenidən 3 dəfə (26-28) nəşr olunmuşdur. Son nəşrə "İran nəğmələri" də daxil olmaqla 104 şeir, 2 poema daxil edilmişdir. Qeyd edək ki, Yeseninin "İran nəğmələri"ni bütövlükdə Azərbaycan dilinə ilk dəfə tərcümə edən şair də Əliağa Kürçaylıdır (25). Ondan sonra Səyavuş Məmmədzadə də "İran nəğmələri"ni bütövlükdə Azərbaycan dilinə çevirmişdir (29). Bu yazıda məqsədimiz müxtəlif müəlliflərin tərcümələrini təhlil etmək, müqayisə etmək olmasa da, qeyd etməliyik ki, tərcümələrdə Yesenin poeziyasının ruhunu tutmuş nümunələrlə yanaşı, bundan çox-çox yan keçən tərcümələrə də kifayət qədər rast gəlirik. Sözsüz ki, Yeseninin Azərbaycan poeziyasevərlərinə çatdırılmasında bu şairlərin və tərcümələrin hər birinin rolu var. Lakin bu rolu qəti zərrə qədər azaltmadan, ürəkdən belə bir dəli sual keçir. Görəsən, Yeseninin şeirləri, xüsusən də "İran nəğmələri" Səməd Vurğun kimi bir tərcümə dühasının qələmindən süzülsəydi, necə səslənərdi? Təəssüf etməyə dəyər ki, bu sualın cavabını hiss etsək də, fakt olaraq vermək mümkün deyil. Səməd Vurğunun gənc yaşlarında Yesenin poeziyasına münasibəti ilə bağlı yazılı məlumata rast gəlməsək də, ömrünün sonuna yaxın onun Yeseninin şeirlərinə vurğunluğu məlumdur. Mustafa Topçubaşovun bir xatirəsinə diqqət yetirək: ***"Səmədin operasiya xəbərini eşidən kimi təcili Moskvaya uçdum... Səmədin yanında olmağım ona yaxşı təsir göstərirdi... Ən əsas vəzifəm Səmədə qiraətçiliyim idi. Onun xahişi ilə Füzulidən, Firdovsidən, Puşkindən, Hötedən, Lermontovdan, Yesenindən, aşıq yaradıcılığından şeirlər oxuyurdum... Bir dəfə Yesenindən oxudum. Maraqla qulaq asdı və yuxuya getdi. Qalxanda belə bir yuxu danışdı. Yesenin yatağa düşdü-***

yümü eşidib, mənə baş çəkməyə gəlmişdi. Xeyli oturdu, şeir oxudu. Deyəsən, "Əlvida, Bakı" şeirini. Söhbətinin çoxunu unutmuşam. Gedəndə dedi ki, dəfələrlə Moskvaya gəlmisiniz, burada heç olmasa bir ağcaqayın basdırmamısınızmı? Rusiyanın ağcaqayın meşələri onsuz da çoxdu. Bəs "Vurğun ağcaqayını"?.. Hər gələndə təxirə salırsınız. Ömrə çox da bel bağlamayın, bu dəfə mütləq əkin" (38; səh.129).

Kim bilir, bəlkə də ömür vəfa etsəydi, Səməd Vurğun Yeseninin incə lirikasını Azərbaycan dilinə çevirməklə həmin o "Vurğun ağcaqayını"nı əkəcəkdi.

"İRAN NƏĞMƏLƏRİ"

Yesenin lirikasının mərkəzində yer alan "İran nəğmələri" silsiləsinə 15 şeir daxildir. Əvvəlcə Yeseninin buraya 20 şeir daxil etmək planı olsa da (2; T-6, səh.168), bu reallaşmadı. Bakıda son dəfə olduğu dövrdə (28 iyul - 3 sentyabr 1925-ci il) Yesenin silsilə üzərində yenidən işləmiş və buraya daxil etdiyi 15 şeiri və onların sıralanmasını müəyyənləşdirmişdir. Ümumiyyətlə, Yesenin "İran nəğmələri"ndə şeirlərin sıralanmasına xüsusi fikir verirdi. Şeirlərin sıralanmasına və onların ilk dəfə dərc edildiyi mənbələrə diqqət yetirək:

"Улеглась моя былая рана..." ("Trudovoy Batum" qəzeti, № 280, 10 dekabr 1924, Batum)
"Я спросил сегодня у менялы..." ("Trudovoy Batum" qəzeti, № 280, 10 dekabr 1924, Batum)
"Шагане, ты моя, Шагане..." ("Bakinski raboçi" qəzeti, № 1, 1 yanvar 1925, Bakı)
"Ты сказала, что Саади..." ("Bakinski raboçi" qəzeti, № 1, 1 yanvar 1925, Bakı)
"Никогда я не был на Босфоре..." ("Zarya Vostoka" qəzeti, № 782, 18 yanvar 1925, Tiflis)
"Свет вечерный шафранного края..." ("Zarya Vostoka" qəzeti, № 782, 18 yanvar 1925, Tiflis)
"Воздух прозрачный и синий..." ("Bakinski raboçi" qəzeti, № 82, 13 aprel 1925, Bakı)
"Золото холодное луны..." ("Bakinski raboçi" qəzeti, № 82, 13 aprel 1925, Bakı)
"В Хорассане есть такие двери..." ("Bakinski raboçi" qəzeti, № 74, 3 aprel 1925, Bakı)
"Голубая родина Фирдоуси..." ("Bakinski raboçi" qəzeti, № 74, 3 aprel 1925, Bakı)
"Быть поэтом– это значит то же..." ("Bakinski raboçi" qəzeti, № 177, 7 avqust 1925, Bakı)
"Руки милой–пара лебедей..." ("Bakinski raboçi" qəzeti, № 179, 10 avqust 1925, Bakı)
"Отчего луна так светит тускло..." ("Bakinski raboçi" qəzeti, № 183, 14 avqust 1925, Bakı)
"Глупое сердце, не бейся..." ("Bakinski raboçi" qəzeti, № 177, 7 avqust 1925, Bakı)
"Голубая да веселая страна..." ("Bakinski raboçi" qəzeti, № 179, 10 avqust 1925, Bakı)

Göründüyü kimi, şeirlərin sıralanmasında xüsusi bir meyar (yazılma tarixi, ilk dəfə dərc edilmə tarixi, ilk dəfə dərc edildiyi yer, əlifba sırası, şeirin həcmi və s.) yoxdur. Yesenin Q.A.Benislavskayaya göndərdiyi 11 may 1925-ci il tarixli məktubunda yazır: ***"Bu 2 yeni İran şeirini** (*"Воздух прозрачный и синий..."; "Золото холодное луны..."* – **İ. İsaxanlı**) **sizə evdə verdiyim 2 sonuncu şeirdən əvvələ yerləşdirin. "Пери" və "Голубая родина Фирдоуси..." - dən əvvələ"*** (2; T-6; səh.186). Elə bununla da Yesenin sıralamada o ana qədər mövcud olan tək meyarı (ilk dəfə dərc edilmə tarixi) özü pozmuşdur. Daha sonra son 2 şeirdə də bu meyar bilərəkdən pozulmuşdur. Beləliklə, "İran nəğmələri" şeirlərinin düzülüşündə yeganə bir meyar var – Yeseninin öz istəyi. Bundan sonra bütün nəşrlərdə "İran nəğmələri" 15 şeirdən ibarət olaraq vahid sıralamada verilir.

Göründüyü kimi, 15 şeirdən 11-i "Bakinski raboçi" qəzetində dərc edilmişdir. Ümumiyyətlə, 1924-1925-ci illərdə bu qəzetdə Yeseninin 38 şeiri, 2 poeması dərc edilmişdir. Daha 3 şeiri isə ölümündən ay yarım sonra (qəzetin 12 fevral 1926-cı il tarixli, 37-ci sayında) dərc edilmişdir.

1925-ci ilin iyun ayında ayrıca kitabça şəklində çap edilən 10 şeirdən ibarət "İran nəğmələri" (9; səh.497) bütövlükdə P.İ. Çaginə həsr edilmişdi (2; T-1, səh.413). "İran nəğmələri"nə daxil olan klassik 15 şeirdən 5-i isə Yeseninin son Bakı səfəri zamanı (28 iyul - 3 sentyabr) yazılmış və dərc edilmişdir. Silsiləyə daxil edilmiş son şeir "Голубая да веселая страна..." şeiri P.İ. Çaginin qızı balaca Rozaya

(Yesenin ona "Qeliya" deyirdi) həsr olunmuşdur (2; T-1, səh.419). Bu şeir silsilədə sonuncu yerə qoyulsa da, əslində, şeir bir az əvvəl – aprelin 8-də yazılmışdır. Görünür, şeirin üzərində yenidən işləmək fikri olduğundan Yesenin onu bir az gec dərc etdirmişdir.


Əmirxan Xəlilovun yuxarıda adı çəkilən əsərində "İran nəğmələri"nin 16 şeirdən ibarət olduğu göstərilir (19; səh.73). Bunun texniki bir səhv olduğunu qəbul edib üstündən keçmək olardı. Lakin məsələ burasındadır ki, Yeseninin, doğrudan da, "İran nəğmələri"nə daha bir şeir əlavə etmək fikri olub. S.A. Tolstaya-Yesenina yazır: ***"1925-ci ilin avqustunda Yesenin Bakı yaxınlığında Mərdəkanda, Çaginin bağ evində yaşayırdı. Yeseninin otağının pəncərələrindən biri bağa açılırdı və çox vaxt səhərlər onu quşların səsi oyadırdı. Belə səhərlərin birində o, bu şeiri*** *("Море голосов воробьиных" şeiri "Bakinski raboçi" qəzetinin 10 avqust 1925-ci il tarixli, 179-cu sayında dərc edilmişdir –* **İ.İsaxanlı)** ***yazmışdı. Payızda "Seçilmiş əsərləri"ni hazılayanda o, yenidən bu şeirə qayıtdı, onu "İran nəğmələri"nə daxil etmək istəyirdi və bu məqsədlə şeirin üzərində yenidən işləməyə başlamışdı. Lakin onu başa çatdıra bilmədiyindən həmin şeiri "İran nəğmələri"nə daxil etmədi***" (8; səh.261). Onu da qeyd edək ki, "İran nəğmələri"ni ilk dəfə Azərbaycan dilinə çevirən Əliağa Kürçaylı da əvvəlcə bu silsiləyə 16 şeirin tərcüməsini daxil etmiş (25, 26), sonradan həmin şeirlərdən birini (yuxarıda adı çəkilən şeiri) çıxardaraq, 15 şeirin tərcüməsini saxlamışdır (27, 28). Ola bilər ki, Əmirxan Xəlilov həmin şeiri nəzərdə tutaraq, "İran nəğmələri"nin 16 şeirdən ibarət olduğunu yazır.

Hafizin, Xəyyamın, Firdovsinin, Sədinin sehirli lirikasından süd əmən "İran nəğmələri" ilə Yesenin özünə və Bakıya əbədi sevgi heykəli qoydu.

İNTİHAR, YOXSA QƏTL?

1925-ci il dekabrın 27-dən 28-nə keçən gecə Leninqradın "Anqleter" otelində Yesenin özünü asaraq intihar etdi. Uzun illər Yeseninin intihar etməsi fakt kimi qəbul edildi. Lakin 80-ci illərdə Yeseninin ölümü ilə bağlı yeni, müəmmalı fikirlər ortaya çıxmağa başladı. Qəzetlərdə, jurnallarda, müxtəlif kitablarda Yeseninin ölümünün yeni versiyası – onun qətlə yetirilməsi və sonradan asılması, onun son şeiri – «До свиданья, друг мой, до свиданья» şeirinin qanla yazılmasının da saxta olduğu haqda fikirlər ildırım sürəti ilə yayılmağa başladı. Sensasiya öz işini görməkdə idi, artıq Rusiyada ən çox danışılan mövzulardan biri Yeseninin ölümü ilə bağlı idi. Bir-birinin ardınca bu mövzuya həsr edilmiş müəllif araşdırmaları aparılır, məqalələr, kitablar nəşr etdirilirdi. Məsələ o yerə çatdı ki, fikirlərini tam isbat etməyə hazır olduqlarını hesab edən bir sıra müəlliflər ölkə Prezidentinə müraciət edərək, bu məsələnin ciddi araşdırılmasını xahiş və tələb edirdilər.

Bütün bu şübhələrə son qoymaq məqsədilə 1989-cu ildə SSRİ Yazıçılar İttifaqının təşəbbüsü ilə SSRİ EA-nın M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutu nəzdində xüsusi komissiya – Yesenin Komissiyası yaradılır. Komissiyanın sədri Yesenin irsinin araşdırılmasında fövqəladə rolu olan akademik Y.L.Prokuşev idi. Komissiyaya bir sıra yazıçılar, yeseninşünaslar, kriminalistlər, Yeseninin ölümünün hər iki versiyası tərəfdarı olan müəlliflərdən bir neçəsi daxil idilər. Komissiyanın verdiyi son qərar sensasiyaların heç bir əsasının olmadığını göstərsə də, hələ indi də əks fikirlər səngimək bilmir. Hətta 2007-ci ildə Yeseninin qətlə yetirilməsi versiyasına həsr edilmiş 2 seriyalı film televiziya ekranlarında göstərildi.



S.Yeseninin həyatının son dəqiqələri "Anqleter" otelinin bu 5 nömrəli otağında keçmişdir

Hər iki mövqe tərəfdarlarının dəlilləri əsaslı kimi görünür.Yeseninin qətlə yetirilməsi fikrini xülya sayan akademik A.V.Maslov (10) bir tərəfdən "Yesenin Komissiyası"nın rəsmi qərarına əsaslanır, digər tərəfdən isbat etməyə çalışır ki, Yeseninin intihar etməsi çox təbiidir. O, Yeseninin lap gənclik illərindən başlayaraq



S.Yeseninin dəfn mərasimi
31 dekabr,1925

müxtəlif vaxtlarda yazdığı şeirləri və oradakı ölüm motivlərini təhlil edərək təxminən belə qənaətə gəlir ki, Yesenin elə "ölüm axtarırdı". Doğrudan da, Yeseninin şeirlərini bütövlükdə və diqqətlə oxuyan oxucular onun yaradıcılığında gənc yaşına uyğun olmayacaq sayda "ölüm axtaran" məqamlara rast gələr. Onun 13 noyabr 1925-ci ildə yazdığı "Черный человек" isə artıq ölümün lap yaxında olduğundan xəbər verirdi. Əslində bu poemanı Yesenin xaricdə olduğu dövrdə (10 may 1922-3 avqust 1923) yazmışdı. 1925-ci ilin sonuna yaxın isə 2 gün ərzində (12-13 noyabr) həmin poema üzərində işləyərək, onu "Novıy mir" jurnalına təqdim etmişdi. Poema Yeseninin ölümündən sonra – 1926-cı ilin yanvarında jurnalın 1-ci sayında dərc edildi.

Əks fikrin tərəfdarları hüquqşünas, yazıçı E.A.Xlıstalov (11-14), şairə N.Z. Sidorina (15) və başqaları isə əksinə – ölümü dövründə Yeseninin yazıb-yaratmaq eşqi ilə dolu olduğunu isbat etməyə çalışır, bu motivlərlə dolu şeirləri misal gətirir, hətta onun xaricə – Böyük Britaniyaya keçmək kimi real planlarının olduğu fikrini irəli sürürdülər. "Belə olan halda o niyə intihar etməli idi və bunun üçün mütləq Leninqradamı getmək lazım idi" – deyə sual edirlər. (Məlumdur ki, Yesenin ölümündən cəmi 4 gün qabaq – dekabrın 23-də gecə Moskvadan Leninqrada getmişdi). Digər tərəfdən, müəlliflər Yeseninin həyatında həmişə mərkəzdə duran 3 qadının (Qalina Benislavskaya, Aysedora Dunkan, Zinaida Rayx) ölümü faktorunu müəmmalı hesab edir və bunların Yeseninin ölümü ilə bağlı olduğu iddiasını irəli sürürlər. Son dövrdə qətl versiyası tərəfdarları Yeseninin qəbrinin açılmasını və məhkəmə-tibbi müayinə keçirilməsini tələb edirlər. 1993-cü ildə komissiya uzun illər keçdikdən sonra bunun heç bir nəticə verməyəcəyini və Yeseninin bacısı qızı N.V. Yesenina-Nasedkinanın fikrini əsas götürərək, qəbrin açılmasına ehtiyac görməmişdi (10; səh.77).



S.Yeseninin məzarı
Moskva, Vaqankov
qəbristanlığı

Bütün bunlar dahi şairin müəmmalı ölümü ətrafında gedən fikirləri səngiməyə qoymur və belə görünür ki, bu mübahisə hələ uzun illər mətbuatın və deməli, ictimaiyyətin diqqət mərkəzində olacaq.

Nə olursa olsun, düz 84 il bundan əvvəl dekabrın 27-dən 28-nə keçən gecə, Nazim Hikmətin sözləri ilə desək, "dünyanın ən böyük və ən səmimi şairlərindən biri"ni (16; səh.215) itirdik.

Bu sətirləri yazdığım zaman qulaqlarıma Yeseninin ölümündən cəmi 3 həftə qabaq yazdığı bir şeirindən səslər gəlir:

И, песне внемля в тишине,
Любимая с другим любимым,
Быть может, вспомнит обо мне
Как о цветке неповторимом. (2; T-1, səh.320)

Nə qədər ki dünya var, nə qədər ki dünyada eşq var, sevgi var, məhəbbət var, "nəsri də, dramaturgiyası da, publisist çıxışları da poeziya olan" (40) şeir gülüstanının təkrarolunmaz və solmaz çiçəyi – Sergey Yesenin heç vaxt unudulmayacaq.

Hörmətli oxucum! Sonda Yesenin poeziyasından Azərbaycan dilinə çevirdiyim şeirlərdən üçünü sizin ixtiyarınıza verirəm.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

Rus dilində

1. М. Горький. ***Сергей Есенин***. //С.А.Есенин в воспоминаниях современников: В двух томах. Москва, «Художественная литература», 1986, Т-2, стр. 5-11

2. С.А.Есенин. ***Собрание сочинений в шести томах***. //Москва, Художественная литература, 1977-1980

3. Г.А.Бениславская. ***Воспоминания о Есенине***. //С.А.Есенин в воспоминаниях современников: в двух томах. Москва, «Художественная литература», 1986, Т-2, стр. 49-66

4. П.И.Чагин. ***Сергей Есенин в Баку***. //С.А.Есенин в воспоминаниях современников: в двух томах. Москва, «Художественная литература», 1986, Т-2, стр. 160-164

5. В.А.Болдовкин.***Воспоминания о Есенине.*** http://esenin.niv.ru/ esenin/boldovkin.htm

6. Сергей Есенин. ***Собрание сочинений в трех томах***. //Москва, Издательство «Правда», 1983

7. Азад Шариф. ***Сергей Есенин - Поэт и Человек.***
http://www.turan.info/forum/printthread.php?t=1686

8. С.А.Толстая-Есенина. ***Отдельные записи***. //С.А.Есенин в воспоминаниях современников: в двух томах. Москва, «Художественная литература», 1986, Т-2, стр. 258-263

9. И.В.Грузинов. ***Есенин***. //С.А.Есенин в воспоминаниях современников: в двух томах. Москва, «Художественная литература», 1986, Т-1, комментарии, стр.495-500

10. Маслов А.В. ***Загадочная петля***. Ростов-на-Дону, 2006

11. Хлысталов Е.А. ***Неизвестный Есенин***. Москва, 1990

12. Хлысталов Е.А. ***Тайна гостиницы «Англетер»***. Москва, 1991

13. Хлысталов Е.А. ***Тайна убийства Сергея Есенина***. Москва, 1991

14. Хлысталов Е.А. ***Тайна гибели Есенина***. Москва, 2005

15. Сидорина Н.З. ***Тайны жизни и гибели Есенина***. Москва, 1995

16. М.С.Михайлов. ***Сергей Есенин и Назым Хикмет***. «Тюркологический сборник», стр. 209-215, Москва, 1966

Azərbaycan dilində

17. ***Xorasanda.*** Şeir /Tərcümə: Süleyman Rüstəm //İnqilab və mədəniyyət, 1928, № 6-7, səh.16

18. Süleyman Rüstəm. *"Addımlar"* //Bakı, Azərnəşr, 1930, səh.43-44

19. Əmirxan Xəlilov. ***Sergey Yesenin: Mərdəkanın qızıl payızı və yazı.*** //"Azərbaycan" nəşriyyatı, Bakı,1996

20. Rus şairləri Azərbaycan haqqında. //Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1955

21. Əlvida. Şeir /Tərcümə: Ş. Sadiq //" Ədəbiyyat və incəsənət", 10 yanvar, 1959

22. Əlvida, Bakı. Şeir /Tərcümə: Rəfiq Zəka // "Azərbaycan gəncləri", 29 may, 1964

23. Əlvida, Bakı! Daha çətin bir də görüşək... Şeir /Tərcümə: Əhməd Cəmil // "Ədəbiyyat və incəsənət", 6 oktyabr, 1974

24. Əlvida, əziz dost, əlvida bir də... Şeir /Tərcümə: Nüsrət Kəsəmənli // "Bakı", 9 oktyabr, 1974

25. Sergey Yesenin. ***Şeirlər və poemalar.*** /Tərcümə: Əliağa Kürçaylı //Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1965

26. Sergey Yesenin. ***Qadına məktub.*** Şeirlər və poema /Tərcümə: Əliağa Kürçaylı // "Gənclik" nəşriyyatı, Bakı, 1970

27.Sergey Yesenin. ***Şeirlər və poemalar.*** /Tərcümə: Əliağa Kürçaylı //Azərbaycan Dövlət Nəşriyyatı, 1975

28. S.A.Yesenin. ***Seçilmiş əsərləri*** /Tərcümə: Əliağa Kürçaylı //Bakı, Avrasiya Press, 2006

29. ***İran nəğmələri.*** Şeirlər /Tərcümə: Cəyavuş Məmmədzadə // "Azərbaycan", № 4, 1986. səh.154-159. ***Dünya uşaq ədəbiyyatı kitabxanası.***// Bakı, "Gənclik", 1987, səh.331-342

30. Anama məktub. Şeir /Tərcümə: Mahir Qarayev // "Elm", 10 mart, 1990

31. Qara adam. Poema / Tərcümə: Ramiz Rövşən // "Xəzər", № 3, 2004, səh.18-22

32.. Poetik tərcümələr. 1-ci toplu. //Xəzər Universitəsi Nəşriyyatı, 2005

33. "Fars motivləri"ndən. Şeir /Tərcümə: Qoca Xalid // "Yeni Azərbaycan", 15 aprel, 2005

34. Əlvida, ey dostum, daha ayrılaq; Səni görməyəcəm, əlvida, Bakı və s. Şeirlər. /Tərcümə: Firuz Mustafa // "Yeni Azərbaycan", 29 aprel, 2005

35. Anama məktub; Əlvida, ey dostum, əlvida artıq! və s. Şeirlər /Tərcümə: Eyvaz Borçalı // "Ədəbiyyat və incəsənət", 6 oktyabr, 2006

36. Əlvida, doğma Bakı; Nə ölmək yenidir. Şeirlər /Tərcümə: Eldar Nəsibli Sibirel // "Azərbaycan", 4 iyun, 2006.

37. Əlvida, ey dostum, bir də əlvida; Nə təəssüf, nə göz yaşı, nə fəryad. Şeirlər /Tərcümə: Anar // "Azərbaycan gəncləri", 1 sentyabr 1973; Əsərlər, 6-cı cild. Ssenarilər, tərcümələr, Bakı-2006, səh.593-594

38. Mustafa Topçubaşov. ***Şirinli-acılı xatirələrim.*** //"Azərbaycan", № 6, 1979. səh.125-138

39. Qılman İlkin: ***"Mən aldanmış xalqın yazıçısıyam"*** // www.lit.az/yeni_olmayan

40. Nəriman Həsənzadə. ***Şairə, şeirə xalq ehtiramı.*** // "Ədəbiyyat və incəsənət", 6 oktyabr, 1974

Sergey Yesenin

Anama məktub

Söylə, canım ana, salamatmısan?
Özünə yaxşı bax, özünü qoru.
Qoy sənin daxmandan əksik olmasın
Aylı gecələrin füsunkar nuru.

Eşitdim düşübsən həyəcanlara,
Yamanca qəmlənib nur baxışların.
Darıxıb çıxırsan tez-tez yollara
Əynində o əski, nimdaş paltarın.

Elə ki gecələr getdin yuxuya,
Görürsən sən ancaq bircə halımı.
"Kabak döyüşü"ndə kim isə guya
Sancıbdır köksümə fin bıçağını.

Üzülmə əzizim, sakitləş həmən,
Kədəri, qüssəni tam unut, dedim.
O qədər bədəsil deyiləm ki mən
Səni görməmişdən dünyadan gedim.

Mehriban balanam incimə məndən,
Ürəyimdə qalıb tək arzum, ana.
Bu dəli həsrəti atıb içimdən,
Nolaydı, tezliklə dönəydim sana.

Həsrətin yandırır, ana, içimi
Baharda gələcəm görməyə səni.
Amma bax, səkkiz il əvvəlki kimi
Ala-qaranlıqdan oyatma məni.

Göynətmə qəlbini xatirələrlə,
Qoy acı keçmişin qalmasın izi.
Çox erkən ayrılıq və itkilərlə,
Imtahana çəkib bu həyat bizi.



S.Yesenin-1924

Dua öyrənmək də istəmirəm mən,
Keçmişə dönməyi söyləmə mana.
Təsəllim də sənsən, köməyim də sən,
Tanrının nuru da səndədir, ana.

Unut, fikir vermə həyəcanlara,
Qoy gülsün yenə də nur baxışların.
Daha belə tez-tez çıxma yollara,
Əynində o əski, nimdaş paltarın.

Axşam

Budur artıq qaş qaralıb,
Şeh də düşüb bir balaca.
Dayanmışam yol üstündə,
Söykənərək bir ağaca.

Ayın füsunkar işığı
Evimizin üstə düşür.

Hardasa, lap uzaqlarda
Şeyda bülbüllər ötüşür.

Nə gözəldir, nə istidir
Qışda peç qırağı kimi.
Ağcaqayınlar uzanır
Göylərin çırağı kimi.

Elə bil ki, layla çalır
Çayın həzin şırıltısı,
Yuxu basmış gözətçinin
Toxmağının taqqıltısı...


S.Yesenin, 1918

"İran nəğmələri"ndən

Hər yarım tümənə bir manat verən
Qoca bir sərrafdan soruşdum bu gün:
O gözəl Laləyə necə deyim mən
Fars dilində zərif «sevirəm» sözün?

Van suları kimi, sakitcə həmən
O qoca sərrafdan soruşdum bu gün:
Bəs gözəl Laləyə necə deyim mən
İncə «busə» sözün, necə söyləyim?

Qorxunu - hürkünü atıb icimdən
Yenə o sərrafdan sordum, görəsən,
O gözəl Laləyə necə deyim mən,
Necə deyim ona, ki "sən mənimsən"?

Sərraf cavab verdi mənə sadəcə:
Məhəbbəti sözlə söyləmək olmaz.
Məhəbbət yandırıb-yaxar gizlicə,
Gözlərinsə yanar sanki bir almaz.

Busənin tərifin kimsə bilmir ki,
Busə yazı deyil baş daşlarında.
Busə bir qızıl gül ləçəyidir ki,
İlişib qalıbdır dodaqlarında.

Məhəbbətdən əvəz istəmək olmaz,
Sevincinə, kədərinə dözərlər.
«Sən mənimsən» deyər yalnız və
yalnız
O qara çarşabı götürən əllər.

Tərcümə:
İsaxan İsaxanlı


PROZA

İLHAM TUMAS

ƏXLAQSIZ VƏ QÜDRƏTLİ RASPUTİN HAQQINDA HƏR ŞEY...

sənədli hekayə (əvvəli ötən nömrədə)

ƏXLAQSIZ VƏ QÜDRƏTLİ RASPUTİN



Əvvəlcə narazılığa rəvac verən pozğunluqlar haqqında təsəvvür əldə eləmək üçün 1915-ci ildə polis casuslarının təqrirlərinə nəzər salmaq kifayətdir: "1915-ci il dekabrın 1-i. Saat 19 radələrində Rasputin yaşadığı "Qoroxova 64" ünvanından çıxdı və "Villa Rade" restoranına yollandı. Gecə yarıya qədər burada oldu. Evə tam sərxoş vəziyyətdə qayıtdı". "Dekabrın 3-də gecə evə zorla gəldi, ayaq üstə dura bilmirdi". "Dekabrın 5-i. Rasputin bütün gecəni restoranda Peterburqun ən məşhur pozğun qadınlarıyla keçirdi, səhərə yaxın hamama getdi".

Bütün bu təqrirlərin üstünə zaman-zaman "Qriqori qardaş"ın adı ətrafında hallanan zorlama, pərəstişkarları ilə intim səhnələri barədə söz-söhbətləri də gəlsək, o zaman vəziyyətin ciddiliyini təsəvvür eləmək çətin deyil.

Təxminən eyni vaxtda mətbuatda Rasputinə qarşı ciddi hücumlar başlayır. Daxili işlər naziri Protopov yazır: "Rasputin haqqında mətbuatda gedən yazılara qadağa qoyulması barədə birbaşa çar ailəsindən göstəriş alırdım".

Bu arada çariça tərəfindən baş nazir Stolıpinə tənqidi məqalələrin dayandırılması barədə xəbərdarlıq gəlir. Stolıpin demək olar ki, bu xəbərdarlığı qulaqardına vurur və casus şəbəkəsinin topladığı materiallarla çarın qəbuluna gedir. O, qətiyyətlə Rasputinin saraydan uzaqlaşdırılmasına çalışırdı.

Duma üzvlərindən birinin yazdığına görə, Nikolay, Stolıpinin "Əlahəzrət, bu adam pozğun məclislərdə olur" sözlərindən sonra "nə olsun, orada da dini moizələrlə çıxış edir" deyir və baş nazirin gətirdiyi hesabatı sobaya atır...

Belə çıxır ki, Stolıpini nə Duma, nə sağlar, nə də sollar deyil, məhz Rasputin yıxıbmış...

Sonralar çariçanın qulluqçularından Vırubova məşhur Fövqəladə Komissiyanın 13 saylı protokolunda göstərirdi ki, Rasputin Stolıpin haqqında çox danışır və deyirdi ki, baş nazirin hakimiyyəti lazım olduğundan çox genişlənib".

Jurnalist Sazanov yazır: "Bir dəfə Rasputin mənə dedi ki, çar ona Stolıpinin yerinə namizəd tapmağı tapşırıb. Xeyli təəccüblənsəm də, namizəd kimi atamın dostunun - Nijeqorod qubernatoru Xvostovun adını çəkdim. Rasputin onunla tanış olmaq istədiyini dedi. Səhərisi gün ora yollandıq".

Onlar Xvostovun yanına gedirlər və Rasputin təklifdən qorxuya düşmüş qubernatora deyir: "Onsuz da, Stolıpinin axırına az qalıb".

Bu danışıqdan 10 gün sonra bütün Rusiyanı titrədən qətl baş verir: opera teatrında Stolıpin güllələnir... Bir neçə ay sonra isə Nikolayın göstərişi ilə cinayət işinə xitam verilir. Onu da qeyd edək ki, Fövqəladə Komissiya Rasputinin bu qətllə hər hansı bağlılığını sübuta yetirə bilməyib...

Ümumiyyətlə, Rasputinin ciddi şəkildə dövlət işlərinə əl qoyması, mühüm dövlət və dini postlara təyinatda iştirakı barədə bu gün əldə xeyli material var. Fövqəladə Komissiyanın protokolu onun müqəddəs Sinoda, müxtəlif nazirliklərə təyinatda rol oynaması barədə şahidlərin ciddi ifadələrilə zəngindir.

O da maraqlıdır ki, çar sarayından, yaxud nazirlərin arasından Rasputinə qarşı çıxanların demək olar ki, hamısı ya saraydan uzaqlaşdırılır, ya da vəzifədən çıxarılırdı.

SƏBRİN SONU

Rusiya İmperiyası özünün ən gərgin dövrünü - 1915-ci ili yaşayır. Cəbhədə vəziyyət kritik həddə çatır. Polşa, Litva, Latviya, Belorusiya işğal olunur. Təkcə sentyabr ayında Rusiya cəbhədə 200 mindən çox adam itirir, bütün il boyu isə 1 milyona yaxın rus əsgəri düşmənə əsir düşür.

Rus ordusunun ən bacarıqlı cəbhə generallarından olan İvanov Ali Baş Komandana yazırdı: "Mərmilərimiz, silah-sursatımız çatmır. Almanların dörd top atəşinə yalnız bir dəfə cavab verə bilirik. Əsgərləri balta ilə əlbəyaxa döyüşə göndərməyə məcburuq".

Üzücü müharibə orduda ciddi zabit qıtlığı da yaratmışdı. O dövrün hesabatlarına görə, orduda 3 min əsgərə 10 zabit düşürdü. İşğal olunmuş ərazilərdən qaçqın düşmüş əhalinin vəziyyəti isə daha faciəli idi. Çar bəzi təxirəsalınmaz tədbirlər görmək qərarına gəlir və Ali Baş Komandan Suxomlyunovu istefaya göndərərək, bu vəzifəni özü icra eləməyə başlayır.

Ancaq hamı cəbhədəki məğlubiyyətlərin, cəmiyyətdə hökm sürən xaosun səbəblərini Rasputində görürdü. Onun artıq hərbi işlərə də qarışdığı haqda söz-söhbət səngimək bilmirdi. Ancaq bu da maraqlıdır ki, həmin dövrdə Rasputin çarı və çariçanı dəfələrlə bu üzücü müharibədən çəkinməyə çağırırdı.

Cəbhədəki uğursuzluqlardan və kasıblıqdan cana doymuş xalqın Peterburqda almanlara qarşı hücumu başlayır. Əvvəlcə hüquq-mühafizə orqanları bu qarışıqlığın qarşısını almağa bir elə həvəs göstərmirlər. Şəhərdə böyük talanlar başlayır. Başıpozuq kütlə alman fabriklərinə və dükanlarına, həmçinin ayrı-ayrı vətəndaşlara hücum edir. Hadisələr "Nikolayın istefasına" və alman casusu hesab edilən çariçanın ölkədən çıxması tələbinə gətirib çıxaranda iğtişaşın qarşısı silah gücünə alınır. Kütlənin qarşısını alan adam Peterburq qarnizonunun rəisi, məşhur knyaz böyük Feliks Yusupov idi. Rasputinin sonu da bu adamın oğlu kiçik Feliks Yusupovla bağlıdır...

YUSUPOVLAR

Ailə şəcərəsinə görə, Yusupovlar nəslinin kökü Məhəmməd peyğəmbərlə qohumluğa qədər gedib çıxır. Bu nəslin nümayəndələri Misirdə, Suriyada hökmranlıq, Əmir Teymurun ordusunda sərkərdəlik ediblər. Sonralar Krımda Böyük Tatar Ordasına başçılıq etmiş və Kazan xanlığının yaranmasına nail olmuş bu nəslin nümayəndələri İvan Qroznının dövründə geniş ərazilərə sahiblənmişdilər. Həmin dövrdən etibarən Yusupovlar rus hökmdarlarına yaxın olmuş, mühüm dövlət vəzifələri tutaraq, üç əsr ərzində Rusiyanın ən varlı ailəsinə çevrilmişdilər. Ancaq Yusupovların adı tarixdə daha çox Rasputinlə bağlı xatırlanır.

QƏTL

1916-cı ilin 16 dekabrında Rasputinə qarşı təşkil olunmuş sui-qəsdin ayrı-ayrı detalları barədə bu gün xeyli yazılı ədəbiyyat var. Qətl ideyasının müəllifi 30 yaşlı knyaz Yusupovun və Dövlət Dumasının üzvü Purişkeviçin xatirələri əsasında sui-qəsdin hazırlanmasını və həyata keçirilməsini izləmək mümkündür.

Vladimir Purişkeviç yazır: "Dövlət Dumasında Rasputinlə bağlı sərt çıxışımdan sonra noyabrın 21-də knyaz Yusupov mənimlə görüşdü və nitqimin nəticə verəcəyinə inanmadığını bildirdi. Mən "nə məsləhət görürsünüz" deyə soruşdum. "Rasputini aradan götürməyi" cavabını eşidəndə, gülərək dedim ki, Rusiyada bunu həyata keçirmək qətiyyətində olan adam tanımıram. Knyaz "tanıyıram, biri elə mən" söylədi və əlavə etdi ki, bu axşam planı müzakirə eləmək üçün onun evinə gəlim.

Axşam Yusupovların evində böyük knyaz Dimitri Pavloviçlə tanış oldum. Biz üçlükdə Rasputini aradan götürmək üçün plan cızdıq. Məlum oldu ki, "qoca"nın etibarını qazandığından, Qriqori Yusupovla görüşlərə mühafizəçisiz gəlir. Ona görə də, Rasputinin Yusupovun evində yaşayan bir gözəl xanımla tanış olmaq istəyini bəhanə eləyərək, onun malikanəyə tək gəlməsinə nail olmaq çətin deyildi. Düz dekabrın 16-na, yəni qətl gününə qədər bütün detalları müzakirə elədik. Bu günlərdə bizə Yusupovun həkim dostu Lazavert də qoşuldu".

Beləliklə, 1916-cı il dekabrın 16-da knyaz Yusupov Rasputini götürüb, öz evinə gətirir. Köhnə dostlar birlikdə knyazın evindəki yarımzirzəmi otağa keçirlər. Masanın üstündə Rasputini zəhər qatılmış şirniyyat və çaxır gözləyirdi. Ancaq üç-dörd adamı öldürməyə bəs eləyən mərgümüş Rasputinə təsir eləmir. Yusupov dəhşət içində yuxarıda onu gözləyən yoldaşlarının yanına qalxır və Rasputinin ölmədiyini söyləyir.

Bu yerdən başlayaraq, iştirakçıların yazdıqlarında ciddi fərqlər yaranır.

Yusupovun yazdığına görə, Purişkeviç silahı ona verir və aşağı düşüb qocanı güllə ilə vurmağı tapşırır. Yusupov aşağı düşür, Rasputini güllə ilə vurur. Aşağı əyilərək ölüb-ölmədiyini yoxlayanda isə birdən Rasputin gözünü açaraq onun boğazından yapışır və boğmağa başlayır. Bu zaman içəri girən Purişkeviç ikinci gülləni atır.

Purişkeviç isə yazır ki, birinci güllədən sonra onlar Rasputinin artıq can verdiyini görüb, yuxarı qalxırlar. Ancaq yarım saatdan sonra qapının açıldığını eşidib aşağı düşəndə bir müddət əvvəl can verən Rasputinin darvazaya tərəf qaçdığını görürlər. Bundan sonra Purişkeviç ikinci gülləni atır. Sonra cəsədi Neva çayına tullayırlar.

Rasputinin həyatı kimi ölümü də xeyli müəmmalar doğurub. Məsələn, onun qətlində İngiltərə kəşfiyyatının casusu Rayner Osvaldın da adı hallanır. Guya, Rasputinin çara müharibədən çıxması barədə məsləhətlər verməsi maraqlı tərəf kimi İngiltərəyə sərf eləmədiyindən, "qoca"nı zərərli hesab eləyən rus əyanları ilə ingilislərin fikirləri üst-üstə düşüb. Bu fərziyyənin müəllifləri cəsədin çəkilmiş şəkillərində açıq-aydın görünən başa atılmış güllənin məhz ingilis casusuna məxsus olduğunu güman edirlər.

ZİRZƏMİ QƏTLLƏRİ

Bu gün Rasputin fenomeninə münasibətdə tarix bizə birmənalı yol göstərməkdə acizdir. Və görünür, bu müəmma elə açılmamış da qalacaq. Ancaq sonluq üçün Rasputin haqda dəyərli araşdırmanın müəllifi Edvard Radzinskinin öz kitabına yazdığı ön sözdən maraqlı heç nə tapa bilmədim. Radzinski yazır: "Rasputinin qətlə yetirildiyi zirzəmiyə düşəndə mənə elə gəldi ki, buranı haradasa görmüşəm. Azacıq fikirləşdim və yaddaşım aydınlaşanda dəhşətə gəldim. Bəli, necə də oxşardılar! Bura çar ailəsinin qətlə yetirildiyi, bir neçə il əvvəl gördüyüm zirzəmiyə çox oxşayırdı. Elə buradaca gözümə uzaq Yekaterinburqda bu qətliama başçılıq eləyən Yurovski gəldi. O, əllərilə üzünü tutmuş çar qızlarına, yaralı halda yerdə çabalayan vəliəhdə son qurğuşun payı "yedizdirirdi". Barıtın tüstüsü dağıldı və gözlərim önünə sadə Sibir kəndlisi Rasputin gəldi. Bu adam çara doğrusunu söyləyibmiş: "Mənim ölümüm sənin ölümün olacaq..."

LENT.AZ

Глядя из Лондона

НЕКОТОРЫЕ ОСОБЕННОСТИ ЖЕНСКОЙ КРАСОТЫ



Течение времени и возраст, уходящая молодость и красота. Такие мысли обычно посещают в канун очередного дня рождения. И посещают они чаще женщин. В этих мыслях всегда есть что-то грустное, и не важно, сколько тебе лет, тридцать, сорок, пятьдесят. Женщины, конечно, склонны преувеличивать, задумываясь о возрасте при наступлении, например, 25-летия. Однако, каждый день рождения очередной личный рубеж, а значимые даты вдвойне важны для осмысления достигнутого. Как в канун нового года мы вспоминаем о произошедшем в уходящем году хорошем и плохом, так и в канун дня рождения человек задумывается о своих успехах и разочарованиях, приобретениях и потерях.

Ожидание дня рождения всегда дольше самого праздника, хотя можно ведь праздновать несколько дней. А почему бы и нет? Первый день дня рождения, второй день дня рождения, третий…

Интересно, что я до сих пор жду своего дня рождения как ребёнок, заранее радуюсь поздравлениям, подаркам, вниманию. Приятно услышать добрые слова о себе, что, безусловно, поднимает настроение и самооценку. С другой стороны, хочется оттянуть наступление этого дня, чтобы избежать ещё одного прибавления к годам. В детстве всегда хочется стать старше, а в двадцать пять хочется, чтобы тебе всегда было двадцать пять. В пятнадцать лет годы неприятно тянутся как резина, а, начиная с двадцати пяти, летят как неуловимые птицы. Но стоит использовать этот день, чтобы ненадолго остановиться.

День рождения – добрый праздник, но уж слишком эмоциональный. Часто взгляд останавливается на каком-то предмете, застываешь на секунду, а в голове – вечность. По крайней мере, такое ощущение. Время летит и его всегда недостаточно… Ладно, хватит тосковать о вечности и слишком много думать! Поезд покидает станцию и быстро набирает скорость, чтобы на следующий год вновь остановиться, но только на один день…

* * *

Новое исследование показало, что женщины старше сорока лет чувствуют себя намного моложе своего возраста, а также обладают большими финансовыми возможностями, чем в молодости. Почти две трети сказали, что выглядят молодо, в то время как 55 процентов утверждают, что наслаждаются таким же количеством мужского внимания, как и в молодые годы. Многие восхищаются такими знаменитостями как Кэтрин Зета Джонс и Твигги, а больше трети являются основным кормильцем в семье.

Недаром эксперты связали восприятие возраста женщин за сорок с их финансовыми возможностями. Ведь в двадцать лет современная женщина только начинает выстраивать свою собственную жизнь, когда как к сорока годам уже достаточно стабильно стоит на ногах.

В западном обществе молодёжи редко приходится рассчитывать на помощь родителей, поэтому молодые женщины часто обеспокоены долгами и уходом за маленькими детьми. Интересно, что в отличие от континентальной Европы большинство англичанок всё ещё рожают первых детей до тридцати лет, что с финансовой стороны тоже нелегко. Следует отметить, что в возрасте от двадцати до тридцати лет женщина только начинает свою

карьеру, когда как к сорока годам она уже состоявшийся профессионал с соответствующей зарплатой. Благодаря же инновациям в сфере косметологии и пластической хирургии, женщины за сорок имеют возможность поддерживать или даже улучшать свой внешний вид.

Недавно вышел рейтинг самых красивых британских женщин. Любимице англичан и современному эталону красоты (по мнению общественности, но не моему) Кейт Мосс удалось занять лишь седьмое место. Рейтинг возглавила непревзойдённая Скарлетт О'Хара, в миру Вивьен Ли, которая умерла почти 40 лет назад. Элизабет Тэйлор заняла второе место. Принцесса Диана и «английская роза» Джули Кристи оказались на четвёртом и пятом месте, соответственно. Но, безусловно, Ли и Тэйлор сложно поставить в один ряд с современными «красавицами».

Кэрол Нидэм, глава одного из ведущих лондонских модельных агентств Needham Models, совсем не удивлена тому, что Вивьен Ли и Элизабет Тэйлор заняли первые места со значительным отрывом от остальных дам. «Ли и Тэйлор обладали классической красотой и старомодным гламуром в отличие от более небрежного современного стиля. Они из эры, когда звёзды были настоящими звёздами». С этим утверждением сложно не согласиться. «Они не были продавщицами из магазина «за углом» до того, как появиться на шоу Big Brother. Они – звёзды, проверенные временем».

Как хотелось бы, чтобы на экране и на обложках журналов опять появились красивые и грациозные женщины, но каждое время рождает своих идолов. Однако, приятно осознавать, что люди всё-таки отмечают, что есть безусловная красота, а есть лишь отзвук моды.

Другими красавицами были признаны Онор Блэкмэн, ставшая известной благодаря роли Пусси Галоре в «Джеймсе Бонде», Сиенна Миллер, Лиз Херли и Джейн Сеймур. Третье место в списке знаменитых красавиц заняла Кэтрин Зета Джонс, чему я искренне рада.

Иконами же стиля последних 50-ти лет были признаны Дэвид Бэкхем и Мэрилин Монро. Бывший капитан английской сборной по футболу оставил позади Кэри Гранта, Элвиса Пресли и Фрэнка Синатру. Супруга Виктория заняла лишь седьмое место среди стильных дам. Вряд ли этот рейтинг мужчин стоит принимать всерьёз, так как в любом списке, подготовленном на основе опроса британцев, победит Дэвид Бэкхем. Просто потому что он самый лучший и точка! Сложно представить себе более популярного британского мужчину, чем Бэкс, как любовно называют Дэвида в Великобритании. И стиль здесь мало причём. Однако не уверена, что многие женщины хотели бы, чтобы их реальный избранник одевался или стригся, как Дэвид. Этакий «метросексуал» или в настоящее время ещё более модный «уберсексуал»! О стиле Элвиса Пресли я лучше вообще промолчу. Короче, я бы предпочла Кэри Гранта… В молодости, конечно.

Ввиду проходивших в Европе недель высокой моды, продолжилась бесконечная дискуссия по поводу излишне худых моделей. На Madrid Fashion Week запретили участие моделей с индексом массы тела меньше 18. Подобный официальный запрет введён в мире моды впервые, чем вызвал огромный общественный резонанс.

Организаторы показов моды отметили, что существует необходимость «показать правильный пример» тысячам впечатлительных молодых девушек, которые с обожанием относятся к миру моды. «Девушки и женщины каждый год приходят на показы или смотрят по телевизору, чтобы вдохновиться модными тенденциями наступающего сезона, поэтому жизненно важно удостовериться, что мы передаём правильные сигналы. Чтобы сделать карьеру модели необязательно иметь нулевой размер одежды».

Несмотря на все разговоры, было принято решение, что никаких запретов во время лондонской недели высокой моды вводиться не будет. Интересно, не связано ли это с тем, что Великобритания в общей массе страдает от ожирения нации? Может, организаторы решили таким образом достучаться до толстяков, хотя вряд ли те граждане, чей излишний вес связан с неправильным питанием и отсутствием физической нагрузки, сильно увлекаются миром моды. Иначе они бы не довели себя до такого состояния.

Как часто мы говорим о балансе в жизни, но не так-то просто придерживаться «золотой середины». И не только в еде. Самоконтроль и внутренняя организация даются отдельному человеку в современном обществе всё сложнее и сложнее. Человек подвластен массовому влиянию, а в наше время СМИ говорят нам всем как жить.

В Великобритании СМИ взяли на себя роль и родителей, и друзей, и наставников, в то время как живые люди считают неприличным давать советы

или оценку. Причём в случае, если вы спрашиваете совета по, казалось бы, самому ничтожному вопросу, не удивляйтесь, если ваш оппонент подчеркнёт, что он «предпочитает это делать так, но это личный выбор каждого и не значит, что делать надо именно так», как будто опасаясь судебного преследования с вашей стороны. Британцы не любят советовать, указывать, оценивать, требовать и высказывать свою точку зрения в личной беседе, что российского человека часто приводит в замешательство и вызывает некоторое раздражение. Подобное поведение считается грубым, устрашающим и запугивающим и «клеймится» как «скудные коммуникационные способности». Порой складывается впечатление, что британцы не имеют своего мнения. Однако это не относится к политике. Все же советы, указы и оценки можно получить благодаря телевидению, но опять же только по тем вопросам, которые волнуют государство в данный момент, а это ожирение нации, здоровое питание, покупка недвижимости, невоспитанные дети, искусственное оплодотворение и перестановки в партии лейбористов. Подача этой информации сродни «вбиванию» в головы непутёвых студентов или гипнозу Кашпировского – по большинству телеканалов несколько раз в день. Что же происходит за пределами Великобритании среднестатистического британца волновать не должно, поэтому центральные каналы его и не «напрягают» новостями из других уголков мира. Великолепный показатель общего интеллектуального уровня британских масс.

Оказывается, что тратящие слишком много денег британцы ответственны за треть всего непокрытого долга в Западной Европе.

Обычный британский любитель «пластика» имеет примерно 3000 фунтов стерлингов непокрытого долга – почти в 2 раза больше должника с европейского континента. И так как Великобритания уже почти достигла долговой «точки насыщения», кредиторы пытаются больше заработать на других уязвимых европейских должниках.

Последние цифры показывают, что частный долг Великобритании, включая ипотеки, повысился до 1,2 триллионов фунтов. Рынок потребительского кредитования в прошлом году уже побил рекорд, составив 215 миллиардов фунтов стерлингов. Тем самым Великобритания стала страной с самой большой задолженностью населения в Западной Европе. Виной тому служит, по-видимому, «ненасытный» аппетит британцев к жизни в кредит.

Ведущие европейские государства на континенте культивируют экономию и бережливость. Французы и немцы особенно неохотно берут кредит. Эксперты считают, что кредиторы теперь нацелятся на такие быстроразвивающиеся рынки как Турция и Греция, так как в Великобритании осталось мало места для роста. «На этих рынках существуют реальные возможности, но только для храбрых игроков. В Великобритании всё сложнее вести бизнес из-за чрезмерной задолженности населения».

Несмотря на взятые кредиты, кажется, что британцы живут беднее, чем немцы, которые, видимо, по своей природе более аккуратны и организованы. В то же время, следует отметить, что Великобритания – одна из самых дорогих стран в Европе.

Оказывается, многие женщины, а среди них и мировые звёзды, не сильно уверены в преданности своих мужей. В чём же дело, «бережённого Бог бережёт» или неуверенность в себе? Видимо, «мамочки» решили подойти к этому вопросу всерьёз после нескольких скандальных историй в знаменитых кругах.

Молодые мамы предпочли бы няню-мужчину, потому что привлекательная женщина-няня представляет собой потенциальную соперницу. Три из четырёх матерей считают, что их брак может оказаться под угрозой из-за женщины-няни, но только половина мужчин были бы обеспокоены из-за мужчины-няни.

После того, как певица Бритни Спирс и актриса Гвинет Пэлтроу пригласили на работу в качестве няни мужчин, называемых «mannies», родители стали терпимее относиться к мужчинам, работающим в сфере ухода за детьми. Больше 80% опрошенных считают, что в наше время более приемлемо иметь няню-мужчину, чем десять лет назад, и 94% сказали, что рассмотрели бы кандидатуру мужчины для роли няни своему ребёнку.

Несмотря на новую моду, профессия няни всё же остаётся преимущественно женской. Мужчины редко выбирают карьеру няни. Что ж, неудивительно… А ревнивым жонам в большинстве случаев остаётся искать немолодую и непривлекательную няню.

Екатерина РУПЕРТИ,
собственный корреспондент
"Русской Америки" в
Великобритании,
"Русская Америка", №370

İDMAN

FUTBOL komandamız var!



Universitəmizdə idman dərsləri keçirilməsə də, bizim artıq bir ildir ki, öz futbol komandamız var və müəyyən uğurlar da qazanıb. Komandanın baş məşqçisi Humanitar və sosial elmlər fakültəsinin üçüncü kurs tələbəsi Anar Mehdiyevdir.

Komandanın çıxış etdiyi ilk böyük yarış ötən il ümummilli lider Heydər Əliyevin anadan olmasının 85 illiyinə həsr edilmiş üniversitetlərarası çempionat olmuşdur. Futbolçularımız həmin çempionatda qrup mərhələsini keçərək, səkkizdə bir finala qədər oyunları davam etdirmişdilər. Bu il Bakının Nizami rayonunda Ulu öndərin xatirəsinə həsr olunmuş yarışlarda isə komandamız yarımfinal oyunlarında iştirak etmiş, lakin finala çıxa bilməmişdir.

Xəzər Universitəsinin komandası 21 nəfər tələbədən ibarətdir və onların hər biri məşqlərə ciddi yanaşır, oyunda var qüvvəsini əsirgəmir. Futbolçu tələbələrimizlə sizi tanış edirik: Akif Məmmədov, Sadiq Bağırov, Abbas Əliyev, Xəzər Əzimov, Ramil İbadov, Emin Rüstəmov, Elçin Heydərov, Taleh Fətəliyev, Vilayət Mehrəliyev, Cavid Nurəliyev, Araz Həsənli, Elşən Xəlilov, Elgün Seyidov, Nemət Əliyev, Elcan Verdiyev, Tural Məmmədov, Orxan Həsənov, Əli Cəfərov, Maytham Jassim (İraq), Sənan Qafarlı, Tural Hüseynzadə.

Komandanın baş məşqçisi Anar Mehdiyev deyir ki, komanda üçün əsas cəhət ruh yüksəkliyidir və bu bizim uşaqlarda var. Futbol bir komanda oyunudur və bu cəhətdən də futbolçularımız yaxşı hazırlıq nümayiş etdirirlər. Komandanın həm uğurunü, həm də uğursuzluğunu hamı bir nəfər kimi qarşılayır. Bir məşqçi kimi mən komandamdan raziyam. Bir çox çətinliklərə baxmayaraq, bu günə kimi bəzi uğurlar əldə etmişik. Uğur qazanmaq üçün çoxlu məşq etmək lazımdır. Hal-hazırda universitəmizin öz stadionu olmadığı üçün biz məşq sarıdan bir az çətinlik çəkirik. Əslinə qalsa, futbol göründüyü kimi asan oyun deyil. Yaxşı futbolçu olmaq üçün insan gərək əqli və fiziki cəhətdən sağlam olsun. Mən komandamıza uğurlar arzulayıram və bir məşqçi kimi bunun üçün əlimdən gələni etməyə hazıram.

Vüsalə MƏMMƏDOVA,
Humanitar və sosial elmlər fakültəsinin
I kurs tələbəsi

ALLAH RƏHMƏT ELƏSİN!

Xəzər Universitəsinin rəhbərliyi və professor-müəllim heyəti universitənin Lüğət və Ensiklopediya Mərkəzinin müdiri Tofiq Abasquliyevə həyat yoldaşı

Abasquliyeva Zinaida İqnatyevnanın

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.


USAQ DÜNYASI

"Xəzər Xəbər" toplusunun məktəblilər üçün əlavəsi

ŞAGİRDLƏRİMİZİN UĞURLARI

Mayın 15-də Xəzər Universitəsinin "Dünya" məktəbində ənənəvi kimya və biologiya aylığı çərçivəsində şagirdlərimiz üçün elan olunmuş "Ən yaxşı referat" müsabiqəsinin yekun mərhələsi – müvafiq mövzularda referatların təqdim edildiyi konfrans keçirilmişdir.

Tədbiri məktəbin biologiya müəllimi, b.e.n Səadət Xudaverdiyeva açdı və müsabiqəyə təqdim olunmuş referatların mövzuları haqqında məlumat verdi. Konfrans keçirilən zalda sərgi – kiçik təbiət guşəsi, eləcə də mövzulara aid kitablar nümayiş etdirilirdi.



Konfransda məktəbin 7, 8 və 9-cu siniflərində təhsil alan 7 şagirdin müxtəlif mövzularda məruzələri dinlənildi. Isayev Cavid (VIII a sinfi) "Sualtı aləmin füsünkar sakinləri – balıqlar", Bayramova Aydan (IX b sinfi) ingilis dilində "Ultraviolet – ultrabənövşəyi şüalar, onların mənfi və müsbət təsiri", Yusifli İnci (IX a sinfi) "Suyun codluğu və onun aradan qaldırılma üsulları", Qarayev Cavid "Sağlamlığa zərər vuran vərdişlər – narkomaniya, siqaret çəkmə, alkoqollu içkilər və onların yaratdığı fəsadlar, xüsusilə də gənc orqanizmin formalaşmasına vurduğu zərbələr", İsayeva Gülçin (VII b sinfi) "Çörək və buğda – bu qiymətli qida məhsullarının fizioloji və sosioloji rolu", Rəhimli Elnarə


(IX b sinfi) "Görmə sistemi – gözlər", Məmmədli Emin (IX b sinfi) "Qara qızıl – neft" mövzularında məruzə etdilər.

Məruzələr həm mövzu, həm də tərtibat baxımından olduqca maraqlı idi. Şagirdlər öz çıxışlarında həm plakat və stendlərdən, həm də elektron formatda nümayiş etdirilən slaydlardan istifadə edirdilər. Nəticədə auditoriyada mövzular haqqında tam təəssürat yaratmağı bacardılar. Lakin bu işin öhdəsindən daha yaxşı gələnlər elə konfransın gedişində auditoriyanın verdiyi rəylər əsasında müəyyənləşdirildilər: Qarayev Cavid I, İsayev Cavid II, Rəhimli Elnarə III yerə layiq görüldülər. Sonrakı yerləri isə müvafiq olaraq Məmmədli Elnarə, Bayramova Aydan, Yusifli İnci və İsayeva Gülçin tutdular.

Sonda məktəbin direktoru Nailəxanım İsayeva tədbir haqqında öz təəssüratlarını söylədi; qeyd etdi ki, belə tədbirlər şagirdlərdə elmi araşdırmalara, diskussiyalara maraq yaratmaqla yanaşı, onlarda sərbəst düşünmək, fikir və mülahizə yürütmək, biliklərini tətbiq etmək vərdişlərini formalaşdırır və inkişaf etdirir. Belə tədbirlər daha tez-tez keçirilməlidir və bunun da nəticəsi "Şagird elmi araşdırmalar mərkəzinin" yaradılması ola bilər. O, şagirdləri uğurlu çıxışları münasibətilə təbrik etdi və onlara daha böyük nailiyyətlər arzuladı.

Səadət XUDAVERDIYEVA







MARAQ DÜNYASI

BİLİRSİNİZMİ?



* *Ilk avtomobil 1886-cı ildə alman ixtiraçısı Karl Bens tərəfindən yaradılıb.*
* *"Dedi-qodu" sözünün maraqlı etimologiyası var. "Dedi" sözünün mənası hamıya məlumdur. "Qodu"isə "kimsə haqqında danışmaq" mənasını daşıyır.*
* *Şampan köpüklənən şərabdır. Ilk dəfə XVII əsrin ortalarında Fransanın Şampan əyalətində hazırlanmışdır.*
* *Rentgen aparatı xüsusi şüaları almaq üçün avadanlıqdır. Alman fiziki, Nobel mükafatı laureatı Vilhelm Konrad Rentgen tərəfindən ixtira olunmuş və onun şərəfinə adlandırılmışdır.*
* *"Xuliqan" ictimai asayişi pozan adamlara deyilir. Bu söz XIX əsrin əvvəllərində İngiltərədə yaşamış və dələduzluğu ilə məşhur olmuş bir adamın adından götürülmüşdür.*

Toplayanı:
Gülxanım ƏLİYEVA, *V I c sinif şagirdi*

LƏTİFƏLƏR

Şagird şikayətlənir:

– Müəllim, mən "2" almağa layiq deyiləm axı!

– Bilirəm, amma "2"- dən aşağı qiymətimiz yoxdur...

***

Müəllim:

– Sənin riyaziyyat məsələni yenə anan həll edib?

Şagird:

– Üzr istəyirəm, neyləyim ? Atam da mənim kimi riyaziyyatdan heç nə bilmir...

***

Məktəbin direktoru sinif yoldaşı ilə dalaşmış şagirdi məzəmmətləyir:

– Utanırsan ?

Şagirdin cavab vermədiyini görüb əsəbi halda əlavə edir:

– Hə, niyə susursan ?

– Fikirləşirəm.

– Nə haqda ?

– Utanmalıyam, yoxsa yox...

***

Ata oğlundan soruşur:

– Sən haçan ikini düzəldəcəksən?

–Ata, mən neyləyim, jurnal müəllimlər otağındadır.

***

Müəllim:

– Qulaq as, mən sənə üçüncü dəfədir ki, "3" verirəm. Belə olmaz, niyə görə oxumursan? Oxumaqdan hələ heç kəs ölməyib.

Şagird:

– Bilirəm, amma risk etmək istəmirəm.

***

Müəllim müəllimə deyir:

– Mənim sinfim savadsız uşaqlarla doludur. Teoremi izah edirəm, başa düşmürlər. İkinci dəfə izah etdim, yenə də başa düşmürlər. Üçüncü dəfə izah etdim, mən başa düşdüm, amma onlar başa düşmədilər.


Toplayanı: **Ülviyyə ƏLİYEVA**

KİTABXANAMIZIN YENİ KİTABLARI




İsaxanlı H. Şeirlər (çin dilinə tərcümə). – Çin: Central Compilation & Translation Press, 2009. – 141 s. – ISBN 978-7-80211-250-6

Moving out of poverty. v. 2, success from the bottom up / D. Narayan and P. Petesch. – Basingstoke; New York: Palgrave; Washington, DC: World Bank, 2009. – 428 p. – ISBN 978-0-8213-7215-9




Mülkədar Nadir. Qaranlıqda işıqlar: şeirlər və poemalar. – Bakı: Nurlan, 2009 – 320 s.






Xallak J. Korrupsion məktəblər, korrupsion universitetlər: Nə etmək olar? / J.Xallak, M.Puasson. – Bakı: Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi, 2008. – 392 s. – ISBN 9952-436-11-4



Gregory, N. New industries from new places: the emergence of the software and hardware industries in China and India / N. Georgy, S. Nollen, S. Tenev. – Washington, DC: Stanford University Press, 2009. – 255 p. – ISBN 978-0-8213-6478-9

Фатуллаев-Фигаров Ш. Зодчество Апшерона. – Баку: Ока Офсет, 2003. – 580 с. – ISBN 9952-41103-4



Lesikar, R. Basic business communication: skills for empowering the internet generation / Raymond V. Lesikar, Marie E. Flatley. – 10th ed. – Boston: McGraw-Hill/Irwin, 2005. – 606 p. – ISBN 0-0728-8002-3



Ямада Э. Час кошки. – СПб: Гиперион, 2008. – 224 с.



Hazırlayanı: Lyudmila Sotova

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən
"Xəzər Xəbər" toplusu yenə sizin görüşünüzə gəlib.
"Xəzər Xəbər"də Azərbaycan, rus, ingilis,
türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,
ali və orta təhsil haqqında yeniliklər,
poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,
elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar, qəribə
sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı yarışlar -
müsabiqələr və s. könlünüzcə olacaq.
"Xəzər Xəbər" gənclərin və oxuyan,
düşünən hər kəsin dərgisidir.
"Xəzər Xəbər"i İNTERNET vasitəsilə dünyanın
hər yerində oxuyurlar.
"Xəzər Xəbər"i siz də oxuyun!
"Xəzər Xəbər"ə siz də yazın!
"Xəzər Xəbər"i şəhərimizdəki qəzet-jurnal
köşklərindən ala bilərsiniz.
"Xəzər Xəbər" ayda iki dəfə çıxır.

Ünvan: Bakı şəhəri,
Məhsəti küçəsi, 11.
Əlaqə telefonları: 421-79-16
421-10-93.
E-mail: xazarxabar@khazar.org